# İSLAM QARDAŞLIĞI VƏ BİRLİYİ ƏMƏLİ ŞƏKİLDƏ ÖZÜNÜ GÖSTƏRMƏLİDİR

*Məzhəbindən asılı olmayaraq, Qurani-kərimi oxuyan hər bir kəs Allahın parçalanmamağa çağırdığını, birliyə və möminləri bir-birinə mütləq şəkildə qardaş olmağa səslədiyini bir mənalı olaraq anlamaqdadır. "Ancaq, təəssüflə qeyd etməliyik ki, çox zaman bu, şablon xarakterli "vəhdət" tədbirlərindəki tablolarda, toplantılardakı çıxış sözlərində qalır.*

*Bütün İslam alimləri ilahi əmrlərin hədəflərini, Peyğəmbərimizin (s) missiya və məqsədlərini yenidən gözdən keçirməlidirlər: "Əminəm ki, əgər təəssübdən kənar şəkildə İslami mənbələr düzgün təhlil edilsə, o zaman İslam qardaşlığı və birliyi əməldə də səmimi şəkildə özünü göstərəcək.*

*Müasir dünyamızda islamofobiyanın hökm sürdüyü bir vaxtda əgər vəhdət məsələsi siyasi şüarlardan səmimi əmələ keçməsə, biz özümüzü aldadaraq yuxuya vermiş, düşmənlərə isə şərait yaratmış olarıq. Birlikdə hərəkət edək ki, bugünkü dünyada tənəzzülə uğramayaq, daha da zəifləyib aradan getməyək.*

*Hacı Ramin İgidov*
*Gürcüstan Müsəlmanları İdarəsinin şeyxi*

# BİZDƏN DEYİLDİR!

**Hz. Peyğəmbər (s) və Əhli-beytin (ə) kəlamları əsasında**




*Orucun tutmayan, namaz qılmayan,*
*Tanrıdan qorxmayan haqqı bulmayan,*
*Fəqiri, miskini yada salmayan,*
*Paxıl yaşayanlar bizdən deyildir!*

*Günahsız qan töküb, savab sayanlar,*
*Fitnəyə qurşanıb, fəsad yayanlar,*
*Qocaya, körpəyə, cana qıyanlar,*
*Zalim yol azanlar bizdən deyildir!*

*Xaliqçün, xilqətin payın bölməyən,*
*Sevgi əsirgəyən, yardım bilməyən,*
*Nifrin, kin yerinə rəhmi seçməyən,*
*Daşürək olanlar bizdən deyildir!*

*Qonşusu ac ikən özü tox yatan,*
*Haram qazanc edən, haram mal satan,*
*İnsanı aldadan, oğurluq qatan,*
*Qul haqqı alanlar bizdən deyildir!*

*Əmanət bilməyən, əhd eşitməyən,*
*Sözünə zidd çıxan, vəfa etməyən,*
*İşinə doğru, həm dürüst yetməyən*
*Kəzzablar, yalanlar bizdən deyildir!*

*Günaha harama diqqətsiz qalan,*
*Nəfsini sorğudan çox uzaq olan,*
*Valideyn incidən ahların alan,*
*Haqları dananlar bizdən deyildir!*

*Hacı Ramin İgidov*
*05.12.2016*

# VƏHDƏT HƏFTƏNİZ MÜBARƏK!




## AYƏTULLAHUL-ÜZMA SEYİD ƏLİ XAMENEİNİN BƏYANINDA VƏHDƏT VƏ QARDAŞLIQ

*- "Bu gün bu mühüm və ilk sırada gələn əhəmiyyətli mövzulardan biri də, müsəlmanların vəhdəti, İslam ümmətinin (müxtəlif) qrupları arasında fasilə (ayrılıq) salan düyünləri açmaqdır. Müsəlmanların arasında təfriqə salmaq siyasəti daha da şiddətlənmişdir... Hiyləgər (məkrli) düşmənlər müsəlmanların arasında "ailə müharibələri" atəşini alovlandırmaqla, onların müqavimət və mübarizə ruhlarını yanlış yönləndirir. Düşmən təkfirçi terrorist qrupları və sairi yaratmaqla öz qəddar siyasətini ortaya qoyur. Bu bizim hamımız üçün bir ciddi xəbərdarlıqdır (həyəcan səsidir) ki, müsəlmanların birlik və vəhdət məsələsini milli və beynəlxalq sahədəki fəaliyyətlərimizdə olan əsas vəzifələrimizin ən başında qərarlaşdıraq."*

*- "Vəhdət, müştərək məqamlara diqqət etməkdir. Biz müsəlmanlar çoxsaylı müştərək məsələlərdə birik. Müştərək olduğumuz məsələlər, fikir ayrılığında olduğumuz məsələlərdən çoxdur. Deməli, bir olduğumuz məsələlərə təkid etməliyik."*

*- "Vəhdət və birliyimizi qorumaq əsas məqsədimiz olmalıdır. Haradasa, hansısa bir məsələni icra etməyin şəri vəzifəmiz olduğunu düşündüyümüzdə, bu məsələnin (deyilməsi – icra edilməsinin) bir miqdar kaos yaradacağı və birliyimizi pozacağı ehtimal verilsə, özümüzə şəri vəzifə bildiyimiz məsələni icra etmək, dəqiq bilin ki, haramdır!"*

*- "Məclislərimizdə məzhəblərarası kin-küdurəti artırmamalıyıq. Bunu nə vaxta qədər davam etdirəcəyik?! Dəfələrlə təkrar etmişəm, amma bəziləri eşitmək (qəbul etmək) istəmirlər. Sizin məzhəbinizin fikirləri ilə razılaşmayan və sizin əqidənizi qəbul etməyən şəxsi doğru yola yönləndirmək üçün necə rəftar edirsiniz? İlk növbədə onun müqəddəs bildiklərini təhqir edib, söyməkləmi?"*

*- "Müsəlmanların birliyi, müxtəlif firqə və məzhəblərin öz etiqadi və fiqhi inanclarından üz döndərməsi mənasına deyildir."*

*- "Biz Həzrət Əlinin (ə) vilayətinə möhkəm şəkildə etiqadlıyıq. Bu etiqad ilahi nemətdir. Amma belə etiqadı olmayanlarla da dalaşmırıq. Bu şiə cəmiyyətinin vəzifəsidir (ki münaqişələrdən uzaq dursun). Düşmən istəyir ki, biz bir-birimizlə ixtilafda olaq."*

# ÜMİD İLAHİYYATINA DAİR BƏZİ QEYDLƏRİM

1. İman həm də ümiddir.

2. Baş verməsi mümkünsüz olan nəsnəyə ümid bağlamaq nə qədər absurddursa, baş verməsi 100% qəti olan nəsnəyə də ümid bağlamaq bir o qədər absurddur. Fəlsəfi dillə ifadə etsək, ümidin obyekti nə zəruri, nə də mümkünsüz olan nəsnədir, əksinə, mümkün olan nəsnədir.

3. Ümid sadəcə olaraq emosional yönü özündə ehtiva etmir. O həm də koqnitiv (inam və biliklə əlaqəli olan nəsnə) hesab olunur. Elə buna görə, ümidi tənqid və ya müdafiə şəklində dəyərləndirmək olar. Deməli, ümidin hər iki yönünə diqqət etməliyik:

a. Ümid bağlanılan nəsnə, başqa sözlə, ümidin obyekti mümkün olmalıdır. Mümkünsüz və ya zəruri olan nəsnə isə ümidin obyektinə çevrilə bilməz. (Koqnitiv yön)

b. Ümid bağlanılan nəsnə ümid bağlanılmağa layiq olmalıdır. (Emosional yön)

Deyilənlərə əsasən, bir ümidi o zaman tənqid etmək olar ki, ya onun obyektinin mümkünsüz və ya zəruri bir nəsnə olduğunu göstərə bilək, ya da ümid bağlanılan nəsnənin ümid bağlanılmağa layiq olmadığını. Ümidin müdafiəsinə gəlincə, həm onun obyektinin mümkün bir nəsnə olduğunu göstərməliyik, həm də ümid bağlanılan nəsnənin ümid bağlanılmağa layiq olduğunu.

4. İman ümidin bünövrəsidir, ümid isə imanın sığortaçısı. Bu, ümidlə iman arasındakı sıx əlaqəni göstərir. Hətta imanın ümiddən asılı olduğunu göstərir. Əslində ümidimiz imandan yox, imanımız ümiddən doğur. Tanrıya ümid və Onun varlığının həyəcanlı arzusu – hansı ki, bəşərin şüuri əbədiliyini sığortalayacaq- bizi Tanrıya imana doğru sövq edir.

(İspan filosof Miqel de Unamuno)



5. Eşq ümid bəsləyir, həmişə də ümid bəsləyir və heç bir zaman ümiddən yorulmur. Bizim Tanrıya ümidimiz, bizim Ona imanımız hər şeydən çox bizim Ona ümidimizdir. Çünki Tanrı ölməz və Tanrıya ümid bağlayan kimsə isə həmişə diri qalar. Bütün ümidlərimizin kökü olan ən əsaslı ümidimiz əbədi həyat ümididir.

Əgər iman ümidin “məzmun”udursa, onda ümid də öz növbəsində imanın “forma”sıdır. İman nə qədər ki, bizə ümid bəxş etməyib, formasız, şəkilsiz bir imandır, mübhəmdir, xaotikdir, protensialdır, iman mümkünlüyündən və ya iman arzusundan başqa bir şey deyil. Biz iman sahibi olmağa ehtiyaclıyıq və ümid bağladığımıza iman gətiririk, ümidə iman gətiririk. Keçmişi anırıq, indiki zamanı tanıyırıq və təkcə gələcəyə imanımız var. Görmədiyimizə iman gətirmək əslində görəcəyimizə iman gətirmək deməkdir. Təkrarlayıram, iman- ümidə imandır: Ümidimiz olana imanımız var.

(İspan filosof Miqel de Unamuno)

6. Ümid modelində iman bircə dəfə baş verən bir olay deyil. Əksinə, hər dəfə təkrarlanan bir olaydır. Odur ki, iman statik yox, dinamikdir.

7. Ümid modelində imanlı şəxs həqiqətin sahibi yox, talibi hesab olunur.

8. “Allahın mərhəmətindən ümidinizi kəsməyin. Allahın mərhəmətindən yalnız kafirlər ümidini üzər!” (Yusuf: 87)

Ayədən anlaşılan odur ki, “iman” ilə “ümid” və “küfr” ilə “ümidsizlik” arasında sıx bir əlaqə var. Belə ki, mömin ümidli insan, kafir isə ümidsiz insandır.

9. İmanın koqnitiv tərəfi olsa da, əslində, onun həqiqətini “yəqin” yox, “ümid” təşkil edir. Quran bir çox ayələrində imanın artıb-azalması gerçəyindən danışır. Belə bir xüsusiyyəti təkcə ümid özündə ehtva edə bilər. Belə ki, ümid bəzən artıb, bəzənsə azala bilər, yəqin isə belə deyil. Fəlsəfi dillə desək, yəqin işıq, rəng, istilik və s. anlayışlar kimi dərəcəli anlayış hesab olunmur. Onun təkcə bir dərəcəsi var, vəssalam. Ümid isə belə deyil, yəni dərəcəli bir anlayış olub, güclü və zəif olmaqla müxtəlif dərəcələri özündə cəm edir. Nümunə olaraq Ənfal surəsinin 2-ci ayəsini nəzərdən keçirək: “Möminlər ancaq o kəslərdir ki, Allah anıldığı zaman onların ürəkləri qorxudan titrəyər, Onun ayələri onlara oxunduqda imanları artar və onlar yalnız öz Rəbbinə təvəkkül edər”. Ayənin sonunda gələn “təvəkkül (=belbağlamaq)” ifadəsi ümidə işarədir.

P.S: Əhzab: 22, Ali İmran: 173, Tövbə: 124-cü ayələr də imanın artıb-azalması gerçəyini qeyd edir.

10. Yəqinin imanın həqiqətini əks etdirməməsinə dair ən bariz dəlillərdən

biri də insanda baş verən "müvəqqəti şəkk" gerçəyidir. Belə ki, əgər yəqin imanın həqiqəti olsaydı, onda insan bir anlıq belə olsun şəkkə məruz qalsaydı, imansız, kafir hesab olunardı. Halbuki müvəqqəti şəkk heç bir zaman küfrə gətirib çıxarmır. Odur ki, belə bir şəkkə məruz qalan adam özünü kafir yox, hələ də mömin (iman sahibi) hesab edir. Şəkk mahiyyət etibarilə "fərqində olmaq" deməkdir. Bu mənada, şəkk insanın əvvələ qayıdıb gözübağlı gəldiyi yolu yenidən gözüaçıq halda qət etməsi deməkdir. Bəzi ilahiyyatçılar belə bir şəkkə "müqəddəs şəkk" də deyirlər. Maraqlısı isə odur ki, bəzi hədislərdə belə bir şəkk imanın özü kimi qələmə verilir.

11. Yəqinin imanın həqiqətini əks etdirməməsinə dair digər bir dəlil isə imanın bir hadisə kimi mahiyyətcə başdan-başa iradə, seçim və ixtiyarı özündə ehtiva etməsidir. Bu mənada, iman həm ilkin olaraq baş verməsində, həm də qalışında iradə, seçim və ixtiyarı əldən vermir. Yəqin isə belə deyil. Yəqinin həm özü, həm də müqəddimələri avtomatik olaraq zəruri şəkildə baş verir. Çünki yəqin müqəddimələrin nəticəsidir, nəticə isə səbəbi var olduğu təqdirdə zəruri olaraq baş verir.Nəzərə alsaq ki, müqəddimələr də hər birisi öz-özlüyündə "yəqin" hesab olunur, bu zaman səbəb-nəticə əlaqəsi burada da öz sözünü deyəcək. Əgər bu silsiləni axıra qədər davam etdirib aksiomlara çatsaq belə yenə də səbəb-nəticə qanunundan qaça bilməyəcəyik. Bundan əlavə, yəqin öz qalışında da iradə, seçim və ixtiyarı itirir. Odur ki, məsələn, 2+6=8 olmasına yəqini olan birisinə "İndi isə bu riyazi müddəaya olan yəqinini öz iradən, seçimin və ixtiyarınla əldən ver"- demək mənasızdır. Deyilənləri əsas tutaraq deyə bilərik ki, imanın dəyəri onun zəruri yox, mümkün hadisə olmasından irəli gəlir. Aydındır ki, həyata keçməsində iradənin, seçimin və ixtiyarın rol oynadığı bir hadisə bu üç elementin heç birini özündə ehtiva etməyən hadisəyə baxanda dəyərli hesab olunur.

12. Ümid modelində iman quru zehni anlayış yox, ekzistensial bir haldır, təcrübədir. İnsan bütün varlığı ilə bu ekzistensial təcrübəni yaşayır, təkcə zehni ilə yox. İmanın həqiqətini yəqin kimi realizə etdikdə isə ortada sadəcə zehni anlayışlar topası ilə qarşılaşırıq. Ancaq iman adamda həyəcan, şövq, sevgi, yanğı, güvən, bağlılıq, aramlıq yaradır. Bütün bunları bizə zehnimizdəki quru anlayışlar yox, məhz ümid bəxş edir.

Emin İmanlı

# ALLAHA YAXINLAŞIB İLAHİ RAZILIĞI QAZANMAQ



*İlahi dinlərdə insanın Allaha yaxınlaşmasına dinlərin əsas hədəfi kimi baxılır. Avam insanlar , bir çox dini təriqət və məzhəblər Allaha yaxınlaşmaq dedikdə daha çox insanın məkan cəhətdən Tanrıya yaxın olacağını güman edirlər. Belə ki, yetərli dini savadı olmayan insanlar Tanrının səmada öz kürsüsündə oturub yer kürəsini izlədiyini və insanın öldükdən sonra səmaya qalxaraq Tanrıya yaxın ola biləcəklərini güman edərlər.*

*Və həmçinin, bir çox dini məzhəblər, o cümlədən, vəhabiyyət bir sıra Quran ayələrinin zahiri təfsirinə istinad edərək, Tanrının axirət dünyasında kürsüdə əyləşərək, insanları mühakimə edəcəyini zənn edər. Bu səbəbdən intihar etmək üçün canfəşanlıq edərlər, taki, axirətə köçüb Allaha yaxın ola bilsinlər.*

*Ancaq bu cür yanaşma Allahın mücərrəd, qeyri-cismani və mütləq bir varlıq olmasıyla ziddiyyət təşkil edir.*

*İlahi dinlərə görə insan ilahi özəllikləri özündə inkişaf etdirmək yoluyla Tanrıya yaxın ola bilər. Belə ki, dini inanclara görə insan yalnız cism və bədəndən ibarət deyildir. O, həm də ilahi ruhun daşıyıcısı və əmanətçisidir.*

*Allah Qurani-kərimin hicr surəsinin 29-cu ayəsində insanın cismi yarandıqdan sonra ona ilahi ruhun əmanət verilməsini buyurur. Bu səbəbdən insanda ilahi özəllik və sifətlərə yiyələnə bilmək qabiliyyəti mövcuddur.*

*Buna görə də bir sıra dini təlimlər insanı ilahi əxlaqa, ilahi özəlliklərə bənzəməyə çağırır. İlahiyyat fəlsəfəsi və irfanında Allahın sifətləri iki cür təsnif edilir. Bəzi ilahi sifət və özəlliklər metafizikidir və yalnız Allaha xasdır. Misal üçün, Allahın ən zəruri vacib varlıq olması, mütləq varlıq olması, səbəblərin ən üstünü olması, nəhayətsiz olması və s.*

*İnsanın bu sifətlərə yiyələnə bilməsi qeyri-mümkündür. Ancaq Allahın bəzi əxlaqi sifət və özəllikləri var ki, insan məhz bu sifətlərə yiyələnməklə, Allaha yaxın ola və ilahi razılığı qazana bilər.*

*Bu cür sifət və özəlliklərə Allahın xeyirxah, mehriban, ədalətli, sədaqətli, səbirli və s. başqa əxlaqi sifətlərini aid etmək olar.*

*Xülasə, ilahi dinlərə görə Allaha yaxın olub, ilahi razılığı qazanmaq üçün insan Allahın adıkeçən əxlaqi özəlliklərini özündə inkişaf etdirməlidir.*

***Bəşər Məmmədov***

# DİNİ ZƏMANƏYƏ UYĞUNLAŞDIRMAQ OLARMI?



***Bəzən belə bir sual verirlər: "Dini zəmanəyə uyğunlaşdırmaq olarmı? Cavab müsbət olduğu təqdirdə İslamın sabit qayda-qanunlarıyla dinamik surətdə inkişaf edən, haldan-hala düşən dünyanı idarə etmək olarmı."***

Bəli, dini zəmanəyə tətbiq etmək mümkündür. Və bu dünyanın da müqəddəs islam qayda-qanularıyla idarə etmək mümkündür. İslam dini sonuncu səmavi din olduğu üçün qiyamətədək insanların bütün maddi və mənəvi ehtiyaclarına cavab vermək iqtidarındadır. Elə bir problem, sual yoxdur ki, islamın o barədə cavabı olmasın və çıxış yolu göstərməsin. İslamın gəlişindən də məqsəd məhz budur ki, bəşəriyyətə əbədi xoşbəxtlik yolunu göstərsin. Bəşəriyyətin əbədi xoşbəxtliyini təmin edən din insanların bütün ehtiyaclarına cavabdeh olmalıdır. İnsanın ehtiyaclarına nəzər salıb diqqət etdikdə insanın ehtiyaclarının iki növ olduğu görünür.

Birinci növ, ilkin və bəşəriyyətin cismani, ruhani quruluşundan və ictimai yaşayış tərzindən irəli gəlmiş ehtiyaclardır. Nə qədər ki, insan insandır və yaşayışı zatən ictimai yaşayışdır, bu növ ehtiyaclar da olmalıdır. Cismani ehtiyaclar: yeyib-içmək, istirahət etmək; Ruhi ehtiyaclar: elm, gözəllik, sitayiş, tərbiyə; İctimai ehtiyaclar: ədalət, azadlıq, bərabərlik, ailə qurmaq və s. kimi ehtiyaclardır. İnsan dünyaya gələn gündən bu kimi ehtiyaclar onunla olub, həqiqətdə onunla birlikdə dünyaya qədəm qoyublar. Və nə qədər ki, dünyada insan var bu qisim ehtiyaclar onun kənarında sabit, daimi olaraq qalacaq.

İkinci növ ehtiyaclar isə həqiqətdə bəşəriyyətin özü xəlq etdiyi zaman, mühit, ictimadan irəli gələn ehtiyaclardır. İnsanın qanuna olan ehtiyacı kimi. Sözsüz ki, bu qisim ehtiyaclara cavab verə biləcək qayda-qanunlarda zaman-mühit nəzərə alınmalı və hər bir zəmanənin, mühitin özünə uyğun qanun qəbul olunmalıdır.

Bəşəriyyətin təkamülünü nəzərə alaraq insanların bu qisim ehtiyaclarını qeyri-sabit olduğundan qeyri-sabit qayda-qanun tələb olunur. Bu kiçik müqəddimədən sonra sualın cavabına nəzərinizi cəlb edirik.

Müqəddəs İslam dininin hökmləri iki qisimdir: sabit və qeyri-sabit. İnsanın qeyd olunan sabit ehtiyaclarına aid olan qayda-qanunlar İslam dinində sabit əbədi olaraq dəyişilməz qayda-qanunlardır. Çünki bu baxımdan 20-21-ci əsrin insanlarıyla min dörd yüz il bundan əvvəlki insanlar arasında heç bir fərq yoxdur. Amma insanların ikinci növ olan qeyri-sabit ehtiyaclarına gəldikdə isə müqəddəs islam dini onlar üçün sabit çərçivələr, ana xətlər təyin etmişdir ki, hər bir yeni hadisə yeni zəmanədə təyin edilmiş çərçivədə öz həllini tapmalı və zəmanəyə uyğun hökmü verilməlidir. Məsələ daha aydın olsun deyə bu misala diqqət edin.

İslam düşmən nüfuzunun qarşısını alaraq ərazi bütövlüyünü qorumaq üçün xüsusi göstəriş verməyib. Gərək mövcud olan vəziyyəti, zəmanəni nəzərə alaraq zəmanəyə uyğun tədbir görülməlidir. Bu baxımdan Qurani-Kərimdə müsəlmanlar üçün bu zəmində ana xətt çəkərək çərçivəni müəyyən etmişdir. "Ənfal" surəsinin 60-cı ayəsində buyurur: "Gücünüz çata biləcək həddə düşmənlərin müqabilində güclü olmağa hazırlaşın".

Əgər bu ayənin təfsirində at çapmaq, ox atmaq tövsiyə olunubsa, səbəbi budur ki, o zamanlarda at çapmaq, ox atmaq hərbi xidmətlərdən hesab olunurdu. İslam baxımında hədəf ata minib ox atmaq deyil. Hədəf budur ki, müsəlmanlar öz zəmanələrinə uyğun düşmən müqabilində son mümkün həddədək güclü olmalıdırlar. (Əlbəttə bunu da nəzərdən qaçırmayaq ki, qeyri-sabit hökmləri sabit hökmlərdən istinbat (çıxarış) etmək səlahiyyəti yalnız ali dini orqanların ixtiyarındadır. Başqa şəxslərin bu sahədə nəzər verməyə haqları yoxdur.)

**İlham Əliyev**

# QURAN və ZİYALI

**Dəyər və saygı ilə yüklənmiş ziyalı sözünü eşidərkən, çox vaxt göz önündə ali təhsilli, klassik tərzdə səliqəli geyinmiş, hardasa cəmiyyətin hər təbəqəsinə qaynayıb-qarışmayan, xüsusi jestlə davranan insan canlanır. İlahi ədəbiyyata əsasən sadəcə bu görüntüləri yaratmaqla kifayətlənən insan, bir ömür bu dəyərli sözü daşımağa layiqdirmi? Məncə yox, elə isə Qurana əsaslanaq.**

Ziya kəlməsi, ərəb sözü olaraq nur, ziyalı isə nurlu və nur saçan anlamındadır. Sözügedən kəlmə Qurani-Kərimdə Tanrı tərəfindən iki ünvana nisbət verilib.

Birinci Günəş: Mütəal Allah Yunis surəsinin 5 -ci ayəsində belə buyurmuşdur:

O Allah Günəşi işıqlı (aydın) və ayı nurlu edəndir.

İkinci Musa və Harun: Ənbiya surəsinin 48-ci ayəsində Rəbbimiz buyurmuşdur:

**Həqiqətən biz Musa və Haruna haqqı batildən ayırmaq vasitəsi, aydınlıq və təqvalılar üçün öyüd-nəsihət verdik.**

Mütəal Allah ziyalı kəlməsin bu iki dəstəyə təsadüfü deyil, üzərlərinə düşən müqəddəs missiyanı doğrultduqlarına görə bəxş edib. Deməli, Günəş ziyalı olaraq təbiəti, Musa və Harun isə cəmiyyəti işıqlandırmalı idi. Günəşin ziyalı borcunu yerinə yetirərək, bütün kainata nur saçıb işıqlandırması, kimsəyə qaranlıq deyil. Musa və Haruna gəldikdə isə, saçdıqları nur nədən ibarətdir? Qurani-Kərim Bəqərə surəsində bir cavanın qətlə yetirildiyini bəyan edir. Qatil öldürülmüş insanı başqa bir insanın evinin önünə atdığından ev sahibi qətldə təqsirli bilinərək mühakiməyə çəkilir. (cəlb olunur). İş bu yerə gəldikdə Quran Musanın həlledici rolundan danışaraq, onlara xüsusi şəraiti olan inəyin kəsilməsi və ətindən öldürülənin cəsədinə vurmağı əmr edir. Allahın izni ilə dirilib qatilin kimliyini söyləyir. Bu yolla baş vermiş cinayətin üstü açılır. Nəticədə bir



günahsız insanın qanının batmaması, başqa bir günahsızın məhkum edilməməsi və həqiqi cinayətkarın isə cəzadan yayınmaması təmin edilir. Sözügedən məsələdə qəhrəmanımız cəmiyyətdə cinayət və cinayətkarı ifşa edən bir ziyalıdır. Amma bu ziyalımızın missiyası yalnız bununla bitmir. Qurani-Kərimin başqa bir ayəsində Musanın həqiqi Tanrıdan üz döndərərək buzov pərəstişinə yönələn bir cəmiyyəti daha bir dəfə yanlış düşüncə və etiqaddan, sağlam və doğru etiqada yönəltdiyi bəyan edilir. Burada qəhrəmanımız birbaşa



insanların düşüncə və etiqadına ziya saçaraq onları xurafatdan ayırmaqdadır.

Yenə də Qurani-Kərim Musa şəxsiyyətini başqa bir səhnədə təqdim edir. Bu dəfə qəhrəmanımız cəmiyyəti kölə vəziyyətinə salmış, “mən sizin uca pərvərdigarınızam” deyən və xalqı özünün və heykəllərinin önündə təzimə sürükləyən bir diktatorla mübarizəyə səsləyir. Artıq burada Musa insanların təfəkkürünə ziya saçır. Budur Qurani-Kərimin təqdim etdiyi ziyalı. Qısası Quranda ziyalı, cinayətin, xurafatın və köləliyin girdabında batmaqda olan cəmiyyətin xilaskarına deyilir. Amma Quran-i Kərimdə daha bir incə məqam var. Qəsəs surəsinin 71-ci ayəsində daha bir dəfə Uca Yaradan Ziya barəsində danışarkən bu dəfə ziya mənbəsini qeyd etməkdədir.

**Allahdan başqa hansı tanrı sizə bir işıq (aydınlıq) gətirə bilərdi. Məgər eşitmirsinizmi?!**

Sözü gedən ayədə ziya mənbəsi Mütəal Allahın özü olduğu qeyd edilir.

Bu isə dolayısıyla ziya mənbəsi ilə, yəni Mütəal Allahla rabitədə olmadan ziyalı olmaq düşüncəsinin qeyri-mümkünlüyünü bəyan edir.

İndi siz deyin, Musa timsalında nə qədər ziyalı tanıyırsız?

**Sərdar Hacıhəsənli**

# İSLAMDA DÖVLƏT MÜSTƏQİLLİYİ

**İslam dini müstəqilliyin, azadlığın tərəfdarı olub həm fərdləri, həm də cəmiyyətləri azad şəkildə idarə etməyin, kimsənin boyunduruğu altına girməməyin tərəfdarıdır. Təbii ki, bu, separatçılığa haqq qazandırmaq anlamına gəlmir. Məsələn, deyə bilmərik ki, İmam Əlinin dövründə ona tabe olmayan Müaviyə Şamda müstəqil dövlət qurmaq istəyirdi və bu onun haqqı idi. Bəlli məsələdir ki, bu, separatçılıqdan, başında Peyğəmbər canişininin durduğu İslam dövlətini parçalamaqdan başqa bir şey deyil. İslam da gerçək tövhid dini olaraq, siyasi idarəetmədə də bütövlüyün, birliyin tərəfdarıdır.**




Müasir çağda İslam dünyasının 57 müstəqil dövlətə bölünməsi isə qaçılmaz reallıqdır və İslam hüququnda "İztirar" qaydası ilə təsbit olunur. İztirar qaydasına əsasən, "Çarəsiz qaldıqda hər bir haram halaldır".

Xatırlatmaq lazımdır ki, müsəlman bölgələrin hər biri müstəqil bir dövlət qurmuş olsa da, onlar İslam qardaşlığını prioritet seçə və bir-birini strateji müttəfiq kimi qəbul edib "vahid ümmət" ideologiyasını yaşada bilərlər.

## İslama görə əsl müstəqillik nədir?

Müstəqilliyin ilk mərhələsi kimi dövlətin ərazi bütövlüyü, necə deyərlər, coğrafi müstəqillik başa düşülür. Əsl müstəqillik isə təkcə ərazi sərhədlərinə görə deyil, həm də siyasi, iqtisadi və mədəni baxımdan müstəqil olmaqdır.

19-20-ci əsrlərdə müstəmləkəyə çevrilmiş İslam ölkələri də əksərən coğrafi baxımdan müstəqil idilər, lakin bu müstəqillik onları nəinki inkişaf etdirə, ölkələrində firavanlıq yarada bilmədi, hətta yadelli istismarçıların oylağına çevrilib bütün sərvətlərini əldən verdilər, öz vətənlərində təhqir olundular, kütləvi şəkildə qətlə yetirildilər. Odur ki, müstəqilliyin vacib şərtlərindən biri siyasi azadlıq və uyğun asılılıqdan qurtuluşdur. Siyasi cəhətdən müstəqil dövlətin hakimiyyəti siyasi qərar verərkən ilk növbədə xalqın mənafeyini düşünür və mühüm addımlar atarkən əcnəbilərin maraqlarını nəzərə almır.

Belə siyasi müstəqilliyin təmin olunmasından ötrü isə iqtisadi müstəqilliyə nail olmaq vacib məsələdir. Günümüzdə bəzi dövlətlər məhz iqtisadi rıçaqlar vasitəsilə əcnəbilər tərəfindən idarə olunur, siyasi diktələri eşitmək məcburiyyətində qalır.

Siyasi və iqtisadi müstəqillikdən sonra isə əsl müstəqilliyin sonuncu atributu olan mədəni müstəqillik amili gəlir. Bir dövlət siyasi və iqtisadi cəhətdən müstəqil olsa, hətta ən güclü orduya sahib olsa da, mədəni və ideoloji baxımdan müstəqil olmasa, bir dövlət kimi dilinə, dininə, mədəniyyətinə, ədəbiyyatına və incəsənətinə sahib çıxmasa, siyasi və hətta coğrafi müstəqilliyi də ciddi təhlükə altında olar. Müstəqilliyimizdən sonra ölkəmizə idxal olunmuş radikal dini təriqətlər dövlət müstəqilliyimizi məhz bu baxımdan içdən təhdid edir.

Qurani-kərimdə sözügedən tam müstəqillik haqda buyurulur: "Allah heç vaxt kafirlər üçün möminlər əleyhinə bir yol qoymaz!" (Nisa, 141) Yəni müsəlman dövlətin müstəqilliyini təhdid edən hər hansı amil İslama görə yolverilməzdir və mütləq qarşısı alınmalıdır.

**Vüsal Hüseynzadə**

# İNTİHARIN SƏBƏBİ...




1. Müasir müsəlman filosoflarından biri Mustafa Məlikiyan intiharın səbəbini belə açıqlayır: İnsanın sərf etdikləri ilə qazandıqları arasındakı tarazlıq kobud şəkildə pozularsa, yəni qazancı kəskin azalarsa, insan intihara əl atır. Təsəvvür edin bir insanın məqsədi ailəsinə, ətrafına, xalqına və vətəninə xeyirli olmaqdır. Bütün səyi insanları məmnun etmək, onlara fayda verməkdir. Bunun üçün gününün gözəgəlimli hissəsini qeyd edilən sahələrdə xərcləyir. Bu xərcləmə fiziki, maddi, mənəvi formalarda ola bilər. İndi belə bir şəxsin xərcinin müqabilində qazancı da olmalıdır. Qazancın şəxsin özünə fayda verməsi şərt deyil. Axırı işin nəticəsi olmalıdır ki, o gözəl fəaliyyətini davam etdirmək üçün stimul əldə etsin, həvəslənsin, hətta işinin həcmini böyütsün. Amma qazanc kəskin azalarsa, artıq o həvəsdən düşür, bəzən isə şok effekti yaradır ki, hər adam bunun öhdəsindən gələ bilmir. Məsələn: böyük bir proyektin inşasını hədəfləyən, bunun üçün illərlə zəhmət çəkən bir insan sonda müəyyən səbəblərdən bu hədəfindən qalırsa, həm də bu hədəfinə çatmayacağı xəbəri ona ani çatırsa, şəxsdə kəksin ruh düşkünlüyü yaranır, həyatdan küşür və intihara əl atır. (məqalənin həcminə görə bu qədər izah yetərlidir).

2. Başqa bir nəzəriyyə isə belədir: insan bağlandığı, sevdiyi bir ideal dəyəri əldən verdikdə intihara əl atır və ya onun yaşaması üçün canından keçməyə hazır olur. Vətən, din, haqq, azadlıq uğrunda ölümə getmək, bunlardan məhrum olduqda yaşamağa lüzum görməyib özünə qəsd etmək buna nümunə ola bilər. Əlbəttə, birinci hal, yəni özünü dəyərlərə, ideallara fəda etmək və başqası tərəfindən öldürülmək müsbət, acizlikdən, çarəsizlikdən intihar yolunu seçmək isə mənfidir.

3. Nəzərimcə, məsələyə ayrı aspektdən də baxmaq olar. Sınanmış bir versiyaya əsasən, insanların həyatdakı son məqsədi mənəvi dinclik, rahatlıq əldə etməkdir. Düzdür ki, ilk baxışda bu belə görünməyə bilər. Amma insanın istəkləri sonsuz olduğu üçün çatdığı hədəfin arxasında yeni bir hədəf dayanır. Bəs bu hədəflər sonsuzluğu nə ilə nəticələnir? Allah-taala insan təbiətində, fitrətində bir sıra sabit instinktlər qərar verib. Onların sırasına “yaşamaq”, “sevmək”, “öyrənmək”, “rahatlıq” kimi tələblər də daxildir. Deməli, insanın hədəflərindəki sonsuzluğun sonunda “rahatlıq” durur (əlbəttə, söhbət dünya həyatından gedir).

Digər tərəfdən Allah-taala insanın bu tələbini nəzərə alaraq, dünya həyatında ona dörd rifah, təskinlik, rahatlıq vasitəsi qərar vermişdir: məskən, gecə, qadın və Allahın zikri. İnsanlar bu dörd təskinlik vasitəsilə qarşıya çıxan çətinlikləri üstələyə, hətta görməzdən gələ bilərlər. Məsələn: Peyğəmbərimiz (s) buyurardı ki, mənə bir çətinlik üz versəydi namaza pənah aparardım.

Deməli, insanlar bu vasitədən yararlanmaqla intihar kimi xoşagəlməz əməldən yayına bilər, ən çətin hadisələrlə üzüzə qalsalar belə.

Amma, bunları bilməyən insan nə edir? Təbii ki, rahatlığı digər şeylərdə axtarır. Həmin rahatlıq vasitəsi, sərvət, ailə, əyləncə, sevimli peşə və s. ola bilər, hansı ki heç biri həqiqəti əks etdirmirlər, yəni real rahatlıq, dinclik amili deyillər. İnsan bu rahatlıq vasitələrindən ən çox önəm verdiyini əldən verdikdə, narahatlığı kəskin artır. Artıq dünyada rahatlığın mümkün olmadığını düşünür və yeganə yolu bu dünyanı tərk etməkdə, - rahatlıq tapmaq ümidi ilə - axirətə köçməkdə görür.

Halbuki, İmam Əli ibn Hüseyn (ə) bu xüsusda buyurub: Təəccüb edirəm o insana ki, dünyada rahatlıq axtarır, halbuki, o, burda yoxdur”.

İnsanın bu dünyada tapmadığı şeyi axirətdə tapmaq arzusu və ya narahatlıqdan yaxa qutarması ümidi ilə intihara əl atması onun “o dünya” barədə bilgisizliyindən, yaxud yanlış bilgisindən irəli gəlir. Təbii ki, burada gərgin psix-

oloji durumların rolunu da danmaq olmaz. Düzdür ki, axirət maddi və mənəvi rahatlıq, dinclik yeri ola bilər, amma bu hər kəs üçün keçərli deyil. Yaradılış baxımından yalnız bu dünyanın tələbinə (başqa sözlə Allahın əmrlərinə və qadağalarına) uyanlar, o dünyada da rifaha nail olacaqlar. İnsan o dünyada rahatlıq tapacağına əmin olsa belə, bu intihara əl atmağına, əcəlini tezləşdirməyə bəraət qazandırmır. Bu məsələnin bir tərəfi. Digər tərəfdən sual oluna bilər ki, bəs bu dünyada rahatlıq yoxdursa, burada yaşamağın nə lüzumu var? Bu dünyada yaşamaq ona görə lazımdır ki, əvvəla yuxarıda qeyd edildiyi kimi dörd rahatlıq vasitəsindən yararlanmaq şansımız var, müvəqqəti də olsa. İkincisi, bu dünya axirətlə müqayisədə keçid xəttidir. Məsələn, çayın üstündən körpünü keçib qarşı tərəfə keçmək əvəzinə körpü üzərində oturub, birdəfəlik məskən salmaq hansı məntiqə uyğun gəlir? Bəli, müvəqqəti istirahət üçün körpü üzərində dincəlmək olar. Amma orda daimi məskunlaşmaq bir tərəfdən təbii bəlaları qaçılmaz edir, digər tərəfdən də insanın torpaq üzərindəki rifahını təmin etmir.

Nəticə etibarı ilə, intiharın başlıca amili insanın həyatı və ölümü düzgün analiz edə bilməməsi, həyatın qanunlarının əleyhinə olaraq hərəkət etməsi, düşdüyü çətin durumu düzgün qiymətləndirməməsidir.

**Xəyal Tofiqoğlu**

# *Sərxoşun hekayəsi*



*Sərxoş evdən bayıra çıxmaq istəyirdi. Əlini atıb stolun üstündən maşının açarını götürdü. Evdən çölə çıxmaq istəyirdi ki, qəfildən işıqlar söndü və evə qaranlıq çökdü. Sərxoşun ayağı büdrədi və açar əlindən stolun altına düşdü. O, qaranlıqda açarı axtarmağa başladı və nə qədər gəzdisə də, tapmadı.*

*Qəfildən baxıb gördü ki, bayırda hava evin içərisindəkindən daha işıqlıdır. Öz-özünə "nə qədər axmaqsan eee, işığı qoyub qaranlıqda açar axtarırsan?!"deyib açarı axtarmaq üçün bayıra çıxdı.*

*Bu an qonşusu da bayıra çıxırdı, onun həyətdə nəsə axtardığını görüb yaxınlaşdı və dedi: "Qonşu, nə olub, nə axtarırsan, kömək lazımdır?" Sərxoş "həy eee ay qonşu, maşınımın açarını itirmişəm, tapmağa kömək etsən əla olar." deyə cavab verdi.*

*Onlar birlikdə açarı axtarmağa başladılar. Bir neçə dəqiqədən sonra qonşusu sərxoşdan soruşdu: "Yaxşı, de görək açarı dəqiq hansı tərəfdə itirmisən, oranı axtaraq da?" Sərxoş "evin içərisində" deyə cavab verdi. Qonşusu dedi :"dolamısan məni ay axmaq?! Adam nə qədər axmaq olmalıdır ki, evdə itirdiyi açarı çöldə axtarsın?!" Sərxoş cavab verdi: "Axı qaranlıqda açarı axtarmaq lap axmaqlıq olardı!"*

*Bəli, əzizlər! Çoxumuz elə bu sərxoş kimi rəftar edirik. Daxilimizdən qaynaqlanan, mənşəyi özümüz olduğumuz və yalnız özümüzün həll edə biləcəyimiz problemlərin səbəbini daxilimizdə deyil, bayırda axtarır və kənardan yardım diləyirik.*

*Bəziləri də məsələnin təfərrüatından agah olmadıqları halda kömək etməyə cəhd göstərirlər.*

*Bəhruz Camal*

# BİRİNCİ MƏRHƏLƏ ƏXLAQ, İKİNCİ MƏRHƏLƏ ƏXLAQ

Hər bir ilahi din və bəşəri məktəblərin təyin etdiyi bir sıra önəmli əxlaqi normativlər vardır ki, onlara riayət etmək fərdin kamilləşməsində və cəmiyyətin mənəvi tərəqqisində önəmli rol oynayır. Bəşəri məktəblərdə bu cür əxlaqi normativlər daha çox insanlar arası münasibətlərin yaxşılaşdırılması üçün nəzərdə tutulmuşdur. Ancaq ilahi dinlərdə adıkeçən məktəblərdən fərqli olaraq fərdin kamilləşib, cəmiyyətin mənəvi tərəqqisi üçün Tanrı-insan arası münasibətlərin tənzimləməsində də insan üzərinə düşən bir sıra olduqca əhəmiyyətli əxlaqi öhdəliklər vardır.




Bu səbəbdən, İlahi dinlərdə Tanrının buyruq və yasaqlarına əməl olunmasına xüsusi önəm verilməkdədir. Misal üçün, xristian dinində tanrıya inam, insanlara qarşı sevgi və xeyirxahlıq xristianların üzərinə düşən ən böyük əxlaqi öhdəlikdir.

İslam dinində isə Tanrıya itaət edərək mərifət tapmaqa, insanlara qarşı sevgi, sayğı, sədaqət, nəzakət və s. başqa əxlaqi özəlliklərin riayətinə olduqca böyük əhəmiyyət verilir.

Həmçinin, bəşəri məktəblərdən Kant əxlaq fəlsəfəsində insanın əxlaqi dəyərlərini qarşılıqsız və təmannasız icrası hər kəsin üzərinə düşən ən mühüm əxlaqi vəzifədir. Ancaq bəzən insan bilərəkdən, bəzənsə cəhalətdən dolayı, bəzən də emosiya və hisslərinə yenilərəkdən Tanrı və insanlara qarşı əxlaqi borcunun icrasında kəsalət göstərir. Misal üçün, insan bəzən nəfsinə yenilərək Tanrıya itaətdən boyun qaçırır, yaxud insanlara qarşı sayğısızlıq edir, emosiyaya qapanıb kiməsə qarşı qaba , yekəxana hərəkətlər edir, bir başqasına yalan danışır və s.

Əxlaq filosofları (Moral philosophers) bu cür hallarda insanlara ikinci mərhələ əxlaqlı olmağı təklif edirlər. Belə ki, əgər insan Tanrıya itaətdən boyun qaçırıb, Tanrının buyruq və yasaqlarına əməl etməyibsə, gərək Tanrıdan bağışlanmasını diləyə və itaətsizliyindən dolayı peşmançılıq hissi keçirə.

Və həmçinin, əgər insanlara qarşı əxlaqi normativləri pozub, kiməsə qarşı pislik, sədaqətsizlik, sayğısızlıq, ədalətsizlik edərsə, gərək insanlara qarşı əxlaqi normativləri pozmasından dolayı üzürxahlıq edə, tutduğu işdən dolayı peşmançılıq, özünü danlayıcı utanc hissləri keçirə, taki, ikinci mərhələ əxlaqlı bir şəxs ola bilsin.

Xülasə, əgər insan nə vaxtsa əxlaqi normativləri pozarsa, tutduğu işdən dolayı peşmançılıq, üzürxahlıq, utanclıq hissləri yaşamalıdır ki, ən azından ikinci mərhələ əxlaqa riayət etmiş olsun.

Sonda, qeyd etmək istərdim ki, bu cür yanaşma (ikinci mərhələ əxlaqlı olma) müasir əxlaq fəlsəfəsində gündəmə gətirilməzdən öncə ilahi dinlərdə tövbə etmə kimi təlimlərlə ifadə olunmaqdadır.

**Bəşər Məmmədov**

# AİLƏ HƏYATI QURMAĞIN ZƏRURİLİYİ

**Ailə həyatı qurmaq həyatın mühüm və zəruri məsələlərindəndir və bu məsələyə ciddi yanaşmaq lazımdır.**




Tənhalıq, kimsəsizlik hissi, hisslərin ən əzablısıdır. Kişi və qadın evlənməmişdən qabaq bu cansıxıcı hisslərdən əzab-əziyyət çəkirlər. Amma böyük və mütəal Allah onların vücudunda bir-birinə qarşı elə bir cazibə yaratmışdır ki, bu cazibənin nəticəsində bir yerdə olsunlar və o yorucu, cansıxıcı, yandırıcı əzablardan xilas olub sakit, sağlam halda, asudə və aram bir mühitdə birlikdə, bir-birinin kənarında səfa və səmimiyyətlə yaşayıb, bir-birinə fiziki və mənəvi cəhətdən kömək edərək, bir-birini tamamlasınlar. Övlad dünyaya gətirib onun gülüb-ağlamasına, yıxılıb-qalxmasına, oturub-durmasına, gediş-gəlişinə tamaşa etsinlər.

Allah-Taalanın insanları heyrətə salan qüdrətini bir insanın – o insanın ki, onların vücudunun səmərəsidir - yaranmasında hiss etsinlər və məhəbbətin həqiqi mənasını tapsınlar, bir-birinə, övladlarına bəslədikləri şövq və məhəbbətlə həyatı davam etdirmək üçün çalışsınlar və həyatın böyük hədəfinə doğru - mütləq kamala çatmaq, Allaha yaxın olmaq və İlahi nura qovuşub əbədiləşmək üşün - sürət və həvəslə hərəkət etsinlər.

Buna görə də evlənmək həyatın vacib və zəruri məsələlərindəndir və bu məsələyə əhəmiyyət vermək lazımdır. Bu məsələdə cavanlara kömək olunmalıdır ki, özlərinə layiq, müvafiq və uyğun bir həyat yoldaşı taparaq, cansıxıcı təklikdən özlərini xilas edə bilsinlər. Valideynlər gərək cavanları evləndirməyi yersiz gecikdirməsinlər və onları bu işdə çətinə salmasınlar.

Bir məktubdan seçilmiş hissəyə diqqət edin:

“...Bu səs-küylü dünyada təkəm. Ancaq mehriban Allahıma ürək bağlamışam. Bilirəm, gərək sizin vaxtınızı almayım, amma nə edim? Başqa yolum yoxdur... Həyatımın 22-ci baharındayam. Atam mehriban və dindar bir kişidir, amma anam onun əksinə olaraq, çox kobud və bədxasiyyətdir. O, mənə tikanlı və yandırıcı sözlər deyir və bu sözləri ilə mənim qəlbimi qırır. Hər kim mənə elçi gəlir hərəsinə bir eyib tutur və hər dəfə bir söz deyib ərə getməyimin qabağını alır. Başqa bir tərəfdən də qardaşlarım müxtəlif bəhanələrlə elçiliyə mane olurlar və bu işin qarşısını alırlar. “Gələn elçi dövlət işində işləmir, vəzifəsi yoxdur, gələcəyi puçdur və səni dolandıra bilməyəcək”, – deyirlər.

Bir neçə gün qabaq həyalı, imanlı və mömin ailədən olan bir oğlan mənim elçiliyimə gəlmişdi. Atam onunla evlənməyimə razılaşdı, amma anam və qardaşlarımdan biri razılaşmadılar. Dedilər ki, o, bizim ailəmizə yaraşmır və evi, qazancı yoxdur... faydasızdır.

İndi mən evdə qalmışam. Pak və imanlı bir həyat yoldaşımın olmasını arzulayıram və Allahdan istəyirəm ki, məni qadınların böyük cihadına (Allah və din yolunda döyüş) - yəni ərə xidmət göstərib, yaxşı övlad tərbiyə etmək - daxil etsin, həyatda tək-tənha qalmayım. Ancaq anam mənim bu hissimi və ehtiyacımı dərk etmir və deyir ki, bu olmadı, başqa birisi...

Mənim başqa bir narahatçılığım da budur ki, hər kim bizim evə gəlir mənə bir tənə vurur. Deyir ki, filankəsin qızı ərə gedib, sənin nə eybin var ki, səni almırlar? Bu kimi söz-söhbətlərlə məni hamının yanında təhqir edir.

Səni and verirəm Allaha ki, mənə Allah rizası üçün, kömək edin və hər hansı yolla bilirsiniz, mənim anamı və qardaşlarımı nəsihət edin. Bəlkə bu işlərindən əl çəkib mənim evlənməyimlə razılaşalar. Allaha and olsun ki, mən nə zahirə əhəmiyyət verirəm, nə mal-dövlətə, nə də ki, yaşa. Tək arzum ancaq imanlı və yaxşı əxlaqlı olmasıdır... Sizdən istəyirəm ki, mənə öz qızınız kimi kömək edəsiniz ..“

İmza: Sizin tənha və köməksiz qızınız ...

Əziz ana! Məlumdur ki, sizin qızınız kifayət qədər böyüyüb, ərə getmək vaxtı çatıb və özündə buna ehtiyac

duyur. Buna görə də gərək onun fitri və təbii istəyinə cavab verib onun üçün ailə qurmaq şəraitini təşkil edəsiniz. Yersiz irad və bəhanələr gətirməkdən çəkinin. Çünki, qızın yaşı artdıqca, ailə qurmaq baharı, təravəti gecikə bilər və bunun da nəticəsində ər və arvad bir-birləriylə əxlaq, xüsusiyyət baxımından gec uyğunlaşacaq və aralarında ünsiyyət və məhəbbət çətin və daha gec çiçəklənəcək.

İmam Cavadın (ə) səhabələrindən biri sizin kimi düşünürdü və gözləyirdi ki, göydən behiştin camallı və kamallı mələklərindən birisi qızının elçiliyinə gəlsin. O, İmama (ə) belə bir məktub yazdı: "Mən bu vaxta qədər qızlarım üçün iman və əxlaqda özüm kimi olan bir şəxs tapa bilmədim, bu halda, mənim üzərimə düşən vəzifə nədir, mən nə edim?"

İmam həzrətləri (ə) onun cavabında yazır: "Qızlarının haqqında yazdığını və indiyə qədər özün kimi birisini tapa bilmədiyini oxudum. Allah sənə rəhm etsin! Bu məsələdə işi çox çətinə salma, çünki Allahın Peyğəmbəri (s) buyurmuşdur:



"Əgər sizin övladlarınızın elçiliyinə gələn şəxs din və əxlaq baxımından xoşunuza gəlsə, onu kürəkənliyə qəbul edin, yoxsa, yer üzündə böyük fəsadlar yaranacaqdır."[1]

"Bu olmadı, başqa birisi..."- deyib durmaq düzgün deyil. Bəlkə başqası elçiliyə gəlmədi və yaxud gəlsə də, əxlaqlı, imanlı, əmanətdar, sədaqətli və ağıllı olmadı.

"Bizim ailəmizə yaraşmır və uyğun gəlmir"- ifadəsi nə deməkdir?

Əgər "Bizə yaraşmır, uyğun gəlmir və ya bizim kimi deyil", - kimi ifadələrdə məqsəd iman və əxlaq baxımından olarsa (buna şəriətdə ər və arvadın bir-biriylə kufv, yəni əqidə və əxlaqda həmtay olması deyilir) din tərəfindən dəstəklənir və doğru bir addımdır. Doğrudan da ər və arvad bir-birinə iman və əxlaq baxımından layiq olmalıdırlar ki, bu barədə İmam Sadiq (ə) buyurub: "Kufv kəlməsində məqsəd budur ki, elçi iffətli, əmanətdar, doğru-düzgün adam olsun, həmçinin sadə bir həyat və yaşayışı təmin edə bilsin".[2]

"Kufv" və "həmtay" kəlmələrinin bu təfsirinə görədir ki, Peyğəmbər (s) zahiri gözəllik, mal-dövləti olmayan, amma yaxşı əxlaqlı və ləyaqətli bir müsəlman olan Cuybəri, Qureyş tayfasının varlılarından olan Ziyad bin Vəlidin qızı Dilfanın elçiliyinə göndərdi. Amma Ziyad bu məsələ ilə razılaşmaq istəmirdi. Peyğəmbər (s) ona buyurdu: "Ey Ziyad! Cuybər mömindir və mömin kişi möminə qadının kufv və həmtayıdır. Ey Ziyad! Cubəyri kürəkənliyə qəbul et və ondan qaçma..."[3]

Lakin yuxarıda qeyd olunan "Bizim tayımız deyil"- kimi və buna oxşar ifadələrdə məqsəd var-dövlət, zahiri gözəllik və bunlara oxşar şeylər olarsa, bu düzgün bir fikir sayılmır.

Burada bir məsələni də sizə xatırladım ki, şəriət qanunlarına əsasən nikahın doğruluğunda ancaq qızın və atasının razılığı şərtdir. Əlbəttə, daha yaxşı olar ki, bu işdə bütün ailə üzvlərinin razılığı əldə edilsin. Bu şərtlə ki, qızın ailə həyatı qurub, tənhalıqdan canlarını qurtarmış qardaşları da, gərək, öz pak və iffətli bacılarının hisslərini dərk edib ləyaqətli cavanı kürəkənliyə qəbul etsinlər. Bunu da bilsinlər ki, nikah bağlamaqla kişinin iradə, hünər-himməti, çalışqanlığı daha da artır və Allah-Taala da onların ruzisini çoxaldır.[4]

**Mənbələr:**


[1]. "Vəsailuş-şiə", Hürr Amuli, 14/51.

[2]. "Əl-Kafi", Şeyx Kuleyni, 5/346, Babul-kufv; "Təhzibul-əhkam", Şeyx Tusi, 7/394, Babul-kufv; "Vəsailuş-şiə", Hürr Amuli, 14/51.

[3]. "Vəsailuş-şiə", Hürr Amuli, 14/43-44.

[4] . "İslamda Ailə Əxlaqı", Ustad Seyid Əliəkbər Hüseyni, s.27.


Çevirən: **Mirməhəmməd Bəşir**



# MÜSƏLMANA ELM ÖYRƏNMƏK NİYƏ VACİBDİR?



**İslamla bağlı müxtəlif qarayaxmalara, islamofob çıxışlara baxmayaraq, mübarək dinimizin ardıcılları ilbəil silsilə ilə artır. İslamofobların əsas xətti – dinimizi xurafat və mövhumatla assosiasiya etdirməkdir. Amma maraqlanan, öyrənən hər bir kəs bilir ki, elm, İslamın mahiyyətindədir, İslamın xəmiri elmlə yoğrulub. Bunu gizlətmək üçün məlumatsız insanlara mütləq İslam dinini qaranlıq, savadsız bir kütlənin təlimi kimi çatdırmağa cəhd edirlər. Bunun qarşısına yalnız maariflənməklə, elmin zirvələrinə yetişməklə çatmaq olar. Mütəal Allah bu işdə cəmi iman əhlini müvəffəq etsin!**

## ALİMİN İTKİSİ – ƏVƏZEDİLMƏZDİR

İslamın alimə verdiyi yüksək qiymət İmam Cəfər Sadiqdən (ə) nəql edilən aşağıdakı hədisdə bariz surətdə görünür: «O zaman ki, fəqih mömin (əməl edən İslam alimi) aradan gedər, İslamda elə bir boşluq, çatışmazlıq əmələ gələr ki, heç nə onun yerini doldurmaz».

İslamda çox az mövzu tapılar ki, bu cür qətiyyətli surətdə itkinin ağrılığı çatdırılsın. Əvvəllər «fəqih» məfhumu İslam maarifi sahəsində, ümumiyyətlə İslam elmi sahəsində öncül mövqeyində duran, bilgi sahibi olan alimlərə deyilib. Sonradan bu anlayış transformasiya olunaraq, artıq fiqh sahəsində çalışan alimlərə, məhz İslam hüququ ilə səciyyələnən istiqamətə aid edilməyə başlanıb. Öncə isə fəqih – islami elmlərə bələd, tam mənada islamşünas olan alimə - «fəqahətə malik» olan, həm nəzəri, həm praktiki mövzularda nəzər sahibi olan insana deyirdilər.

Bəs dinimiz əməl edən alimin dərəcəsini niyə belə üstün tutur? Nə üçün din alimin ölümünü əvəzolunmaz bir itki kimi təqdim edir? Mövzunun açılışı üçün İslamda şəhid tematikasına toxunaq. Məlum olduğu kimi, dinimizin nəzərində şəhidlik çox yüksək və mübarək statusa malikdir. Şəhidin qanı – cəmiyyətə nəfəs verən, cəmiyyəti dirildən bir təbərrükdür. Amma İslam dini alimin mürəkkəbini şəhidin qanından üstün tutmuşdur. Alimin zəhmətini cəmiyyətin həyatında, müqəddəratında taleyüklü dəyişikliklərə rəvac verən bir amil kimi qəbul edir dinimiz.

Alimin formalaşdırılmasında bütün mütərəqqi dünya – bilavasitə və ya dolayısı ilə - iştirak edir. Bəşərin bütün nəcib zəkası əməl edən alimin bilgilərinin, əxlaqının, ruhi-mənəvi durumunun yetkinləşməsində rol oynayır. Alim bütöv bir kamillik dünyasıdır və dinimiz onun itkisinin əvəzsizliyinə diqqət çəkir. Necə ki, bir aləm, bir dünya məhv olsa, onu bərpa etmək mümkünsüzdür – bərpa olunan nəsə təzə bir şeydir, heç zaman əvvəlkinin yerini verməz – eləcə də, yeni gələn alim öz yerinə gəlir, öncəki alimin yerini zatən doldura bilməz. Daha üstün və ya daha az bilgilərə malik ola da bilər, müxtəlif dərəcələrə yetişə də bilər – amma o biri alimin yerini tuta biməz. Burada özünəməxsusluq, orijinallıq var və dinimiz alimin dəyərini zaman-zaman təsdiq edir.

## MÜSƏLMANA ELM ÖYRƏNMƏK VACİBDİR

Alimin cəmiyyətdə böyük rol və əhəmiyyətinə gəldikdə, bu, alimin xüsusi missiyası ilə izah edilir. Belə ki, alimlərin əsas vəzifəsi – cəmiyyəti saflaşdıran bir mənbə, özünəməxsus generator vəzifəsini icra etməkdir. Alim – toplumu həyalandıran, insanların hərəkətlərinə mənəviyyat yükü verməyə çalışan, qırmızı xətləri təzahür etdirən bir ruhi mənbədir. İnsan, toplum, cəmiyyət mənəviyyatdan məhrum olduqda, mənəvi mənbələrdən kəsildikdə necə də yazıq duruma düşür! İndi təsəvvür edək ki, bu mənəviyyat mənbəyi olan alim topluma müvafiq abhavanı ifazə etməyi bitirsin. Toplum buna dərhal qırmızı xətlərin keçilməsi, toplumu əmələ gətirən mental dəyərlərin aşınması ilə reaksiya verəcək. Millətin ziyalısı – onu abıra mindirən, həya və iffət, ləyaqət və izzət yolunu göstərən bir bələdçidir.

Ümumiyyətlə, İslamda ən önəm verilən məsələlərdən biri – elmdir. Böyük İslam Peyğəmbəri (s) buyurmuşdur: «Elm öyrənmək bütün müsəlmanlar üçün vacibdir. Agah olun ki, Allah Təala elm ardınca gedənləri sevir».

Təəssüflər olsun ki, yaşadığımız toplumda elmə, biliyə olan həvəs mərhələ-mərhələ zəifləməkdədir. Elmə, maariflənməyə canatma ümumda sezilmir. Bunun yerini qəlp dəyərlər, surroqat kateqoriyalar tutmaqdadır. Dünya hara gedir, biz hara?! Dünyada bu gün «açıq universitet» konsepsiyası ən populyar modellərdən biridir. Uşaqlıq dövründən yaşlı mərhələyədək cəmiyyətin bütün kateqoriyaları müvafiq tədris proqramları ilə əhatə olunur. İnvestisiyalar üçün ən əlverişli yer məhz elm, fundamental tədqiqatlar hesab olunur. Gələcək nəsillər üçün bu sahələrə yatırımlar edilir. Bəşər gəlib çatıb ona ki, insanı azad edən, ona dəyər verən, aktuallıq verən – elm-

dir, zəkadır, bilgidir. Hələ 14 əsr bundan öncə dinimiz insanın elmlənməsini vacib bilmiş, burada hansısa yaş, cins, milli, mənşə və digər məhdudiyyətlər qoymamışdır.

**ALLAH ELM ÖYRƏNƏNLƏRİ SEVİR**

Allah Təalanın insanın fitrətində qoyduğu hisslərdən biri – bilgiyə can atmadır. İnsan öyrənməyə, baş açmağa, bilməyə meyillidir. Sonradan səhv mühit, qeyri-salamat ictimai münasibətlər onda bu canatmanı kütləşdirir, zəiflədir. Digər bir bədbəxtlik – bu hissin lazım olmayan, insanın özünə zülm verdiyi istiqamətlərə yönəlməsidir. Elm, tarix, ibrət, hikmət qalıb bir yanda, insanlar ötəri məsələlərlə - «filan ulduz nə etdi, behman ulduz nə etmədi» ilə başlarını doldururlar. Tədqiqatlar göstərir ki, ən böyük maraq doğuran xəbərlər, məhz kiminsə şəxsi həyatının təfərrüatlarıdır. Zombiləşmə prosesi də bax elə məhz beləcə gedir.

İnsanda bütün bilgələr hüzuri – hazır olan və hüsuli – hasil olunandır. Hazır olan bilgilər öz yerində, əksər bilgiləri insan ətraf dünyadan müxtəlif vasitələrlə əxz etmək yolu ilə hasil edir. Bu hasil olan bilgələr onun dünyagörüşünün formalaşmasında, əməllərinin necəliyində həlledici rol oynayır.

Hədisdə göründüyü kimi, Allah Təala elm öyrənənləri sevir. Elm öyrənən insanda Allahı dərk etmək mərifəti güclənir, insan Allaha yaxınlaşır. Qurbi-İlahi – Allaha qovuşmaq mərtəbəsi, o cümlədən, elm öyrənməklə, tanımaqla fəth edilir. Əlbəttə, nəfsin kontrolu və digər mövzular burada çox önəmlidir, lakin bütün bunlar elmin yenilməz bazasında bərqərar olunur.

**KAMAL, ELMLƏDİR**

Həzrət Əli (ə) buyurur: «Dindarlığın, dində olmağın kamalı – elm öyrənməkdə və ona əməl etməkdədir. Biliniz ki, sizin üçün elm əldə etmək, mal əldə etməkdən üstündür».

İnsanın vücudi təkamülü, bilmək və əməl etməklə şərtlənir. Bilmək və əməl emək – təkamülün 2 qanadıdır. Dindarlığın, dinə mənsubiyyətin ən optimal vəziyyəti – kamala doğru hərəkət etməkdir. Deməк, bilməyə və əməl etməyə can atmaq – dinə inanan insanın məntiqi davranışıdır. Mal, sağlamlıq və digər bu kimi şeylər – bu hərəkətin a) təminatçısı; b) ideallaşdırma vasitəsidir. Yəni, əgər bir tərəfdən insanın malı, rifahı onun kamilliyə doğru hərəkətinin hazırkı təminatçısıdırsa, eyni zamanda həmin bu hərəkətin dönməzliyinin, davamlılığın, ardıcıllığın, insanın ideal duruma gəlməsinin, insan üçün nəzərdə tutulan nəcib missiyanın həyata keçirilməsinin vasitəçisi, yardımçısıdır.

Təbii ki, vasitəçidən daha önəmlisi – bilavasitə hərəkətdir. Təminat vasitələri nə qədər əhəmiyyətli olsa da, bilavasitə hərəkət, sözsüz ki, müəyyənedici xüsusiyyətə malikdir. Hərəkətin özü olmasa, onun təminatının nə mənası?! Təminat hərəkət üçündür. Hərəkət olan yerdə vasitə məna ilə yüklənir. Odur ki, elm, bilgi mal-dövlətdən, rifahdan və digərdən vacib və üstündür.

**ELM, ƏQLİN RƏHBƏRİDİR**

Həzrət Rəsuli-Əkrəmdən (s) nəql edirlər: «Allaha itaət və Ona pərəstiş – elmlədir, elmlə mümkündür. Və elm əsasında insan Allahı tanıyır və tövhidpərəst olur. Onun vasitəsilə insan sileyi-rəhm (qohumlarla əlaqəni saxlamaq) edər, halal və haramı tanıyar. Elm, əqlin rəhbəridir».

Elmsiz, bilgisiz insan Allahı tanıya bilməz, tövhidpərəst ola bilməz. Allaha pərəstiş elmsiz olmur. Elm olmasa, insan bilməz ki, niyə Allaha itaət etməlidir? Niyə ötərini buraxıb, əbədiyə sığınmalı, kamala tapınmalıdır? Allah insanı niyə xəlq edib? Ondan nə istəyir? İnsan nə etməlidir? Niyə etməlidir? Və yaxud, insan bilmədən kimə pərəstiş edəcək? Filan şey niyə halal, filan şeysə niyə haramdır? Bu və bir çox digər vücudi sualların cavabını insan yalnız elmlənməklə tapa bilər.

Pərəstiş və itaət – elmlədir. Kamil tövhidi dünyagörüşünə malik olma, yalnız elmlə mümkündür. İstəyir uluhiyyəti, istər xaliqiyyəti, istərsə də rübubiyyəti anlamaq üçün elm zəruri şərtdir.

İnsan bilməklə öz fərdi və ictimai problemlərini həll edir. İnsan bilməklə cahilliyi kənara qoyur və quruculuğa yan alır.

Əqlin rəhbəredici funksiyasına gəldikdə, qeyd etmək lazımdır ki, hər bir şeyin hərəkətverici qüvvəsi, yönəldicisi olduğu kimi, əqlin də yönəldicisi var. Əql özü – bir istedad, alətdir, mexanizmdir ki, tanıma bununladır. Elm, insanın şüurlu hərəkətləri üçün bir vasitədir. Nə qədər əqli istedad güclü olsa belə, məlumatsız və bilgisiz qərar tuta bilməz. Bu mənada elm, məlumat – əqlin hərəkətverənidir.

**ELM KİTABLA QORUNAR**

Allah Rəsulundan (s) nəql edilən hədisdə isə elmi, bilgini yazılı formaya konvertasiya etməyə diqqət yetirilir: «Elm, kitab (yazmaq) vasitəsilə qorunar».

Mühazirələrin, nəsihətlərin, hikmətli kəlamın nə qədər çox dinləyicisi olsa da, subyektiv faktorlardan - necə eşitmək, necə yadda saxlamaq, çatdırmaq, ötürmək və d. asılıdır və bu səbəbdən çox da dayanıqlı deyil. Hər hansı deyim səsin fəzada yayılması ilə məhdudlaşır və sonrakı mərhələdə insan hafizəsi kimi çox da etibarlı olmayan bir daşıyıcıya möhtac olur. Amma yazılı forma daha dayanıqlı, sabit, qalarlıdır və zaman və məkan kimi maneələri aşır, nəsildən-nəslə təhrifsiz, nisbətən dəyişməz (əlbəttə ki, qərəz və texniki qüsurlar istisnadır) formada ötürülə bilir.

Dinimiz də tövsiyə edir ki, bilgilərin itməməsinin ən effektli yolu – onların yazılması, müxtəlif sabit daşıyıcılara köçürülməsidir. Belə olan halda, ondan bir çox insanlar bəhrələnə bilərlər, təhlil və tədqiqat üçün böyük qida əldə edilmiş olur.

Elmin əhəmiyyətini təqdir edən mübarək hədislərin birində Həzrət Əlidən (ə) nəql edilir: «Hikmət, mömininin itirdiyi bir şeydir. Onu öyrən, hətta münafiqdən olsa da belə».

Hətta bilgi sahibi pis xislətli insan olsa da belə, onun malik olduğu elmdən faydalanmaq lazımdır. Yəni, dinimiz kimdənsə bilgi əldə edilməsini, həmin mütəxəssisin mənəvi keyfiyyətlərindən bilavasitə asılı vəziyyətə qoymur.

Əlbəttə ki, həqiqi alim ən yüksək mənəvi məqam sahibidir. İmam Cəfər Sadiqdən (ə) nəql edilir: «Həqiqətən, alimlər – peyğəmbərlərin (ə) varisləridir».

Bu qədər uca məqamı dinimiz müəyyən edir əməl edən alim üçün. Eyni zamanda, alim üçün çox yüksək mənəvi planka müəyyən edilir. İmam Həsən Əsgəridən (ə) nəql edirlər: «Fəqihlərdən (İslam alimlərindən) hər kim öz nəfsinin sahibi olsa, öz dininin hafizi, qoruyucusu olsa, öz həvayi-nəfsi ilə müxalifət etsə və yalnız Allahın əmrinə tabe olsa – insanlar onun ardınca getməli, ona təqlid etməlidir. Bu cür kəslər bütün Əhli-Beyt (ə) alimləri deyil, onlardan bəziləridir».

**Hacı İlqar İbrahimoğlu,**
ilahiyyatçı-filosof
İçərişəhər «Cümə» məscidinin imam-camaatı



# HZ. PEYĞƏMBƏRİN (S) UŞAQLARLA DAVRANIŞI

***Hər bir cəmiyyətin uşaqları gələcəyin kişi və qadınları, sabahının qurucularıdırlar. Onların ruhuna dəyən hər bir zərbə birbaşa cəmiyyətin taleyinə tuşlanır. Uşaqlara hörmət etmək, onlarda izzəti-nəfsi gücləndirmək onların ruh və cisim sağlamlıqlarında təsirli olan ən önəmli amillərdəndir.***

***İslam peyğəmbəri (s) Allah tərəfindən din öndəri olaraq göndərilən, insanların hidayət olunması missiyasını üzərinə götürən, insan həyatının bütün sahələri ilə bağlı qanunlar ortaya qoyan biri olaraq, bu mühüm məqama münasibətdə örnək göstərməyə bilməzdi.***

## 1. Peyğəmbərin (s) nəzəri düşüncəsi;

Peyğəmbərin (s) "Övladlarınıza hörmət edin və yaxşı ədəb-ərkan öyrədin ki, bağışlanasınız" [1] kəlamı onun təfəkkür tərzində uşaqlara xüsusi yer ayrıldığından xəbər verir.

Həzrət Peyğəmbərin (s) uşaqlar haqqında çoxlu buyuruqları var ki, onun bu məsələyə dərin və çox diqqətini göstərir.

Peyğəmbərimiz (s) uşaqlara tərbiyə verməyin, onların inkişaf və tərəqqilərinə zəmin yaratmağın hər gün sədəqə verməkdən daha yaxşı olduğunu söyləyir. [2]

O həzrət başqa bir kəlamında buyurmuşdur: "Əməlisaleh övlad behişt güllərindən bir gül kimidir". [3] Onun fikrincə, övladların valideyn üzərində bir sıra hüquqları var. [4] O, uşağı sevindirməyi İsmayıl (ə) övladlarından bir kölə azad etmək və Allahın qorxusundan göz yaşı axıtmaq qədər qiymətli olduğunu bildirir .[5]

Peyğəmbər (s) tövsiyə edir ki, övladı olanlar onları başa düşdüyü, dərk etdiyi şəkildə davransınlar, özlərini onların dünyası ilə uyğunlaşdırsınlar (6). Həzrətdən (s) nəql olunan bir rəvayətdə deyilir: "Uşaqları sevin, onlara şəfqət və sevgi göstərin. Onlara vədə versəniz, əməl edin. Çünki onlar sizi öz ruzi verənləri hesab edirlər (Siz onların yeganə dayaq nöqtəsisiniz). [7]

## 2. Peyğəmbərin (s) əməl tərzi.

***a) Uşaqlara salam verməki;***

İslam peyğəmbəri (s) uşaqlara salam verirdi. [8] Ənəs ibn Malikdən nəql olunduğuna görə, Allahın rəsulu (s) uşaqların yanından keçərkən onlarla salamlaşar və onlara yemək verərdi (9). Peyğəmbər (s) təkid edirdi ki, bu ənənə müsəlmanlar arasında geniş yayılsın, özündən sonra da davam etdirilsin. [10]

***b) Uşaqlarla hörmətlə davranmaq;***

Peyğəmbər (s) uşaqlara ən mehriban insan olmuşdur [11]. O, uşaqları nəvaziş edərək başlarına əl çəkir, övladlar arasında ayrı-seçkiliyi qadağan edir və öz uşaqlarına şəfqət göstərməyənləri cəhənnəm əhli adlandırırdı. [12]

Deyilənə görə, həzrət Peyğəmbər (s) qızı Fatiməni müsəlmanların təsəvvür etdiyindən daha çox əzizləyir, qayğı göstərirdi. Bu, digər ataların övladlarına göstərdiyi sadə qayğının fövqündə idi. [13]

O hətta körpələrlə də hörmətlə və mülayim davranırdı. İmam Hüseynin dayəsi Ümmü-Fəzl deyir: "Bir gün Hüseyn (ə) südəmər uşaq ikən Peyğəmbər (s) onu məndən aldı və qucaqladı. Onun bələyindən Peyğəmbərin (S) köynəyinə nəm keçdi. Tez uşağı aldım. O qədər cəld tərpəndim ki, uşaq ağladı. Peyğəmbər (s) buyurdu: "Ey Ümmü-Fəzl! Məni su təmizləyər. Amma bu uşağın könlündən qəm qubarını nə təmizləyəcək". [14]

Rəvayətə görə, uşaqları ad qoymaq və dua oxumaq üçün Peyğəmbərin (s) yanına gətirəndə həzrət (s) ailəsinə hörmət olaraq onu qoynuna alır, qucağında saxlayırdı. Bəzən uşağın həzrətin (s) üzstünü islatdığı da olurdu. Bunu görənlər hay-həşir salıb, uşağı onun

qucağından götürmək istəyirdilər. Amma İslam peyğəmbəri (s) uşağı onlara vermir və buyururdu: "Uşağın sidiyə çıxmağının qarşısını hay-küylə almayın". Uşağı rahat qoyurdu ki, sidiyə çıxsın. Dua və adqoyma bitdikdən sonra uşağın valideynləri sevincək onu götürürdülər. Peyğəmbərdə (s) zərrəcə inciklik və qınaq hiss etmirdilər. Uşağın yaxınları gedəndən sonra həzrət paltarını təmizləyirdi. [15]

Bir gün Peyğəmbər (s) üçün şərbət gətirdilər. Həzrət (s) şərbəti içdi. Sağ tərəfində uşaq var idi. Sol tərəfində isə səhabələr. Həzrət (s) uşaqdan soruşdu: "İcazə verirsənmi şərbətdən səhabələrə də verim?" Uşaq icazə vermədiyi üçün şərbətdən səhabələrə vermədi. [16]

Tarixi məlumatlara görə, bir gün Peyğəmbər (s) oturmuşdu ki, Həsən (ə) və Hüseyn (ə) içəri girdilər. Həzrət (s) ayağa qalxdı. Onları qucağına aldı və çiyninə mindirdi. [17] Onları dizinə alıb, nəvaziş edirdi. [18] Yemək yeyərkən onların da ağzına yemək qoyurdu. [19]

Bur gün həzrət Peyğəmbər (s) İmam Həsən (ə) və İmam Hüseyni (ə) nəvaziş edir və öpürdü. Əqrə ibn Habis adlı bir nəfər dedi: "Mənim on övladım var. Heç vaxt onlardan birini öpməmişən". Həzrət peyğəmbər buyurdu: "Rəhm etməyənə rəhm olunmaz". Digər bir rəvayətə görə, o həzrət onun bu sözlərindən o qədər narahat oldu ki, üzünün rəngi dəyişdi və ona buyurdu: "Allah qəlbindən duyğunu qazıyıbsa, mən nə edim? Kim bizim uşaqlarımıza məhəbbət göstərməsə, böyüklərimizə hörmət etməsə, bizdən (müsəlmanlardan) deyil". [20]

İslam peyğəmbəri (s) uşaqlara ayrıca şəxsiyyət verirdi. O, Həsən (ə), Hüseyn (ə), Abbas, Abdullah ibn Cəfər və Abdullah ibn Zübeyrlə hələ yetkinlik yaşına çatmamış beyət etdi (Peyğəmbərə beyət etmələrinə icazə verdi). [21]

**c) Uşaqlarla oynamaq;**

Tarixi qaynaqlarda və rəvayətlərdə nəql olunduğuna görə, Peyğəmbər (s) uşaqlarla oynayırdı. O, səfərdən qayıdanda uşaqlar onu qarşılamağa gedirdilər. Həzrət (s) onların yanında dayanırdı. Onları miniyinə mindirir, səhabələrə də belə etmələrini tapşırırdı. [22]

Ümmü-Xaliddən nəql olunan bir rəvayətdə deyilir: "Bir gün atamla bir yerdə Allahın rəsulunun (s) yanına getdik. Mən sarı rəngli köynək geyinmişdim. Həzrət (s) mənə baxıb "Bəh-bəh!" – dedi və mən onun üzüyü ilə oynamağa başladım. Atam məni üzüklə oynamağa qoymadı. Həzrət Peyğəmbər (s) isə atama işin olmasın dedi. [23]

O həzrət (s) İmam Həsən (ə) və İmam Hüseynlə (ə) də oynayırdı. [24]. Onları çiyninə alır və deyirdi: "Əziz balalarım, miniyiniz nə yaxşı minikdir. Siz necə də gözəl minirsiz". [25]. Bəzən namaz vaxtı Peyğəmbərin (s) belinə minirdilər. Həzrət (s) namazın səcdəsini uzadırdı ki, onlar düşsünlər. [26]

**d) Uşaqlara hədiyyə vermək:**

Bəzən Peyğəmbər (s) uşaqlara şəfqət göstərmək, sevgisini hiss etdirmək üçün onlara hədiyyələr verirdi. Rəvayətə görə, bir gün o həzrət (s) bir çölçünün ona verdiyi ceyranı İmam Həsənə bağışladı. İmam Həsən (ə) bu hədiyyəni alıb çox sevindi. [27] Həmçinin nəql olunduğuna görə, onun üçün hədiyyə gətirilən qiymətli boyunbağını digər qız nəvəsi İmaməyə hədiyyə etdi. [28]

Ümumilikdə İslam peyğəmbərinin həyat tarixini oxuduqda uşaqlarla, yeniyetmələrlə necə davranmaq lazım olduğu haqqında böyük dərslər alırıq. O həzrət (s) uşaqlarla davranışda şəfqət və mehribanlığı əsas götürməsi ilə yanaşı onlara bir insan kimi dəyər verməyə, hörmət etməyə çalışırdı.


1.Təbərsi, Həsən, "Məkarim əl-əxlaq", səh. 222.
2.Təbərsi, Həsən, "Məkarim əl-əxlaq", səh. 222.
3.Şeyx Səduq, "Mən la yəhzuruhu əl-fəqih", c. 3, səh. 484.
4.Şeyx Səduq, "Mən la yəhzuruhu əl-fəqih", c. 4, səh. 372.
5.Şeyx Səduq, "Əl-Əmali", səh. 577.
6.Şeyx Səduq, "Əl-Əmali", səh. 220.
7.İbn Fəhd Hilli, "Üddə əd-dai və nicah əs-sai", səh. 86.
8.Əllamə Təbatəbai, Məhəmməd Hüseyn, "Sünən ən-nəbi (s)", səh. 43, Tehran, (Qütb Ravəndinin "Lübb əl-əlbab" kitabından nəql olunmuşdur).
9.İbn Əsakir, "Tarixi-mədinəti-Dəməşq", Əli Şirinin tədqiqi ilə, Beyrut, c. 37, səh. 408.
10.Şeyx Səduq, "Əl-Əmali", səh. 72.
11.İbn Əsakir, "Tarixi-mədinəti-Dəməşq", Əli Şirinin tədqiqi ilə, Beyrut, c. 41, səh. 334.
12.İbn Fəhd Hilli, "Üddə əd-dai və nicah əs-sai", səh. 79.
13.İbn Əbu əl-Hədid Mötəzili, Şərhi-Nəhc əl-bəlağə", Qum, c. 9, səh. 193.
14.Mühəddis Nuri, "Müstədrək əl-vəsail", c. 2, səh. 557.
15.Təbərsi, Həsən, "Məkarim əl-əxlaq", səh. 25.
16.Malik ibn Ənəs, "əl-Müvəttə", Beyrut, Ehya ət-Turas əl-ərəbi", c. 2, səh. 926-927.
17.Firuzabadi, Seyid Mürtəza, "Fəzail əl-xəmsə min əs-sihah əs-sünnə", Tehran, c. 3, səh. 189.
18.Bəhrani, Seyid Haşim, "əl-İnsaf fi ən-nəssi əla əl-əimmmə", Tehran, səh. 91.
19.Bəhrani, Seyid Haşim, "əl-İnsaf fi ən-nəssi əla əl-əimmmə", Tehran, səh. 91.
20.Buxari, Məhəmməd ibn İsmayıl, "Səhihi-Buxari", Beyrut, c. 7, səh. 75.
21.Həsəni Mustafa, Məhəmməd, "Ətfal həvl ər-rəsul", Suriya, səh. 144.
22.Fəlsəfi, Məhəmməd Təqi, "əl-Hədis", Tehran, c. 3, səh. 63.
23. Fəlsəfi, Məhəmməd Təqi, "əl-Hədis", Tehran, c. 3, səh. 63.
24.İbn Şəhraşub, Mazandarani, "Mənaqibi-Ali-Əbu Talib", c. 4, səh. 71.
25.Firuzabadi, Seyid Mürtəza, "Fəzail əl-xəmsə min əs-sihah əs-sünnə", Tehran, c. 3, səh. 187.
26.Məclisi, Məhəmməd Təqi, "Bihar əl-ənvar", Tehran, c. 44, səh. 229; Firuzabadi, Seyid Mürtəza, "Fəzail əl-xəmsə min əs-sihah əs-sünnə", Tehran, c. 3, səh. 187.
27.Məclisi, Məhəmməd Təqi, "Bihar əl-ənvar", Tehran, c. 44, səh. 229.
28.Asifi, Mehdi, "Peyamavari nikiha", Qum, səh. 111; "Məcmə əz-zəvaid", c. 9, səh. 254.


Tərcümə edən: **Maqsud Sayıl**

# ÖZƏL QADIN HANSIDIR?

Xoşbəxtliyə konkret bir tərif vermək çətindir. Çünki onun tərifi fərdlərə görə dəyişir. Lakin buna baxmayaraq hamımız aralıq və ondan hasil olan şadlığı elə xoşbəxtliyin özü hesab edirik. Bu xoşbəxtliyə həyatda ən yaxın yol-yoldaşı və həmdəm olan xanımsız yetişmək çətindir. Zahiri xoşbəxt batini isə aram bir xanım. Həyatı yersiz iztirablarla doldurub onu qəm-qüssə ocağına çevirməyən, emosiyalarını cilovlamağı və hisslərini kontrol etməyi bacaran, neqativ tərz-təfəkkürdən və bədbinlikdən uzaq olan bir xanım. Belə bir xanımın inanclı və mömin olmaması da mümkündür. Amma aram və şad olduğundan həyatınızı şadlıqla doldura bilər. Bəlkə də bu onun aram və şad ailədə tərbiyə alıb bu ruhiyyədə böyüdüyünə görədir. Əlbəttə, qeyd etmək lazımdır ki, dini inanca sahib olan fərd həmin inancların səbəbi ilə aram olmalıdır. Çünki Allaha təvəkkülün ən böyük nəticəsi aramlıqdır. Lakin bəzən həyatlarında baş verən müəyyən neqativ səbəblər fərdlərin həm, cismi həm də psixikası üzərində öz təsirini qoyur. Bu da onların əxlaq və davranışlarında özünü göstərir. Bu baxımdan da psixoloji aramlığın ailə və uşaqlarının həyatında mühüm rola malik olduğunu deməliyik.

Lakin bəzi insanlar vardır ki, daim sterss və təşviş içərisindədirlər. Məsələn, sükan arxasındadılarsa, daim başqa sürücülərə irad tutub deyinəcəklər, əgər öhdələrində hər hansısa bir müəssisənin idarəçiliyi olarsa, tabeçiliklərində olanlarla kobud rəftar edəcəklər, əgər ər belə olarsa, diktatorsayağı idarəçilik etməyə və daim hər şeyə irad tutaraq öz dediyini yeritməyə çalışacaq, yox əgər qadın belə olarsa, acıdil və daim deyinərək etdiklərini qaxınc edəcək. Belə şəxslər daim problem fikrindədirlər, yəni hazırki şəraitdə heç bir problemləri olmadıqları halda belə gələcəkdə bunlar üçün hər hansısa bir problemin olacağı barədə düşünür və bunun fikrini çəkirlər.



Aramlığı olmayıb daim stress içərisində olan qadınlar hər nə qədər gözəl çöhrə və bədən quruluşuna sahib olsalar da yaxşı həyat yoldaşı deyillər. Onlar hər anı yeni bir qəm-qüssə icad etməyə sanki adət ediblər. Məsələn, hal hazırda ərində bir qüsur olmasa da sanki ərinin gələcəkdə dəyişəcəyi və xəta edəcəyi qorxusu ilə yaşayır. Yaxud da zehnləri "görəsən, xəstələnib yatağa düşərəmsəm, mənim işlərimi kim görəcək?", "birdən ərim məni atıb getsə, nə edəcəm?", "ərim mənə xəyanət etsə necə olacaq?" və s. bu kimi insanın əsəb və rəfarlarına qədər təsir edən suallarla məşğuldur.

Bu tip stress və təşvişlərin varlığı ilə yaşayanların digərlərinə qarşı yaxşı və mülayim rəftar nümayiş etdirməsinin mümkünsüzlüyü aydın məsələdir. Bu daim qərarsızlıq, təşviş və stress içindəki yaşam fərdin özünü əldən salması ilə yanaşı onun həyat yoldaşını da yorur, usandırır. Yanında əyləşdiyin həyat yoldaşın daim səni narahat edir. Onunla söhbətə başladınsa söhbətin axırı nigarançılıq, narahatçılıq və əsəbilik notları üzərində tamamlanır. Onunla danışmaq maraqsız olması ilə yanaşı hər dəfəsində yeni bir problemin və çəkişmənin başlanğıcına çevrilir. Belə xanımlar heç vaxt yaxşı ömür-gün yoldaşı ola bilməzlər. Onlar daim neqativ enerji ilə dolub daşan qab kimidirlər. Onlarla ünsiyyət qarşı tərəfə mənfi enerjinin ötürülməsindən, narahatçılıq və qəm-qüssədən başqa bir nəticə vermir.

İmam Rzaya (ə) istinadən nəql olunan bir hədisdə belə qeyd edilir:

"Heç kim (heç bir kişi) ləyaqətli xanımdan daha üstün fayda və mənfəət əldə etməmişdir. Çünki belə bir xanımın çöhrəsinə baxmaq onu (ərini) şad edir, onun (ərinin) yanında olmadığı zaman isə öz iffətini və onun malını qoruyur".

Deməli, dinimiz ləyqətli qadını (özü şad olub şad etməyi bacaran xanımı) bir şəxsin (kişinin) həyatda əldə edə biləcəyi ən böyük mənfəət, xeyir və fayda hesab edir.

Hər bir qadın belə bir həyat və ömür-gün yoldaşı olmaq kimi bir potensiala malikdir. Bunun üçün isə sadəcə öz emosiyalarını necə kontrol etməsini, özünü sterss, təşviş, nigarançılıqlardan necə qurtarmasını öyrənməsi kifayət edər.

Bir qadın üçün ən böyük hünər həyatın hər bir anını məhəbbət və şadlıqla doldurmaq məharətinə yiyələnməkdir. Yaxşı yemək bişirmək, gözəl və cəlbedici libaslar geyinmək, bəzənib-düzənmək bunlar yalnız əri-ilə müştərək keçirdiyi hər bir günü şadlıqla başa vurmaq üçün bir bəhanədir. Lakin bunların hamısı əxlaqa bağlı oalan məsələlərdir ki, bunların kökündə gözəl əxlaq, şirin və duzlu danışıq tərzi və səmimiyyət dayanır.

**Bəhruz Camal**

# İNSAN DİNƏ NƏLƏRDƏ EHTİYAC DUYUR?



## İnsan yeddi nəsnədə "din"ə ehtiyac duyur və bunları ona obyektiv şəkildə təkcə din təmin edə bilər:

1. Həyata məna, anlam bəxş etmək; *din insanın həyatına ümid, aramlıq və sevinc qatır.*

2. İnsana transsedental olan (=Allah) barədə bilgi vermək; *din insana Allahı tanıtdırır və onun "Haradan gəlmişəm?" və "Nə üçün gəlmişəm?"- suallarına cavab verir.*

3. İnsanı Axirətlə tanış etmək; *din insanın "Haraya gedirəm?", "Ölümdən sonrakı həyat varmı?", "Başqa aləm necədir?" və s. bu kimi suallarını cavablandırır.*

4. Qeyb aləmi ilə tanışlıq; *din insana aydınlıq gətirir ki, hisslərlə qavradığı bu fiziki kainatın ötəsində başqa bir aləm də var: metafizik aləm.*

5. Əxlaqı sığortalamaq; *yəni əxlaqi müddəalar ağıl vasitəsilə dərk oluna bilsə də, insan nəfsi əxlaqi işləri tərk etməkdə, onlara əməl etməməkdə aktivdir. Belə olan halda, din əxlaqın sığortaçısı kimi çıxış edir, belə ki, din insana "mükafat-cəza" anlayışlarını aşılamaqla onu əxlaqa əməl etməyə təşviq edir.*

6. Ritualların təlimi; din insanın *"Necə dindarlıq etməliyəm?", "Allahla necə danışım?", "Allaha olan sevgimi necə təzahür etdirim? və s. bu kimi suallarına aydınlıq gətirir.*

7. Rituala bənzərlərin təlimi; *din insana başa salır ki, nəyi yemək olar və niyə yemək olmaz, nəyi içmək və nəyi isə içməmək olar. Həmçinin ona intim münasibətlərini necə tənzimləməyini öyrədir, belə ki, kiminlə evlənmək olar və kiminlə isə evlənmək olmaz. Bir sözlə, din insanı ictimai həyatın ümumi normaları ilə təlimatlandırır.*

**Emin İmanlı**

# MİLAD BAYRAMI, DİNİ, YOXSA QEYRİ-DİNİ



*Bir çoxlarımız Milad adını eşitsək də onun tarixi haqqında hər hansı bir məlumata malik deyilik. Milad nədir? Tarixi kökü varmı? Hərçənd, xristianlar hələ qədimdən 25 dekabrı həzrət İsanın (ə) doğum günü kimi bayram keçirmişlər və bu bayramı Milad adlandırmışlar. Tarixi qaynaqlara, sənədlərə nəzər saldıqda isə digər gerçəklər üzə çıxır ki, onıarı bilməkdə fayda var.*

*Yalnız Qərb xristianları 25 dekabrı rəsmən İsa Məsihin (ə) təvəllüd günü hesab edirlər. Lakin Şərq ortodoks xristianları öz peyğəmbərlərinin dünyaya gəlişi günü kimi 7 yanvarı rəsmi bayram qeyd edirlər.*

*Bu gün isəvilərə xas dini bir bayram kimi qeyd edilməsinə baxmayaraq, nə keçmişdə, nə də indi yalnız xristianlara məxsus olmayıb, dünya miqyasında milyonlarla insan İsa Məsihin (ə) doğum günündən qabaq və sonra, xristian olmadıqları halda belə bu mərasimi təntənə ilə keçirirlər. Belə ki, bu gün Milad bayramının qeyri-dini bayram olması məsələsi Qərbdə kilsə xadimlərinin ən böyük fikri məşğələlərindən biridir.*

*Tarixi araşdırmalar göstərir ki, Milad bayramı qədim və tarixi kökə malikdir. Birincisi budur ki, qədimdə 25 dekabrda atəşpərəstlər tərəfindən (indiki İran və Azərbaycan ərazisində) bayram keçirilər və sevgi tanrısına sitayiş edilərmiş. Antik qaynaqlarda bu gün "Günəşin doğuşu" günü kimi təsvir edilmişdir. Antik miflərə görə, ibtidai insanlar qışın qar-çovğununun içindən onlara istilik bəxş edən Günəş şüasını görər və baharın gəlməsi müjdəsini alardılar.*

*O zamanlar ibtidai insanlar ova çıxardılar. Öz qəbilələrinə Günəşin doğduğu müjdəsini verərdilər. O gündən sonra hər keçən gün yerin daha isti olmasının və qışın sonunun yaxşılaşmasının şahidi olurdular. Bu mif Şimali Avropa coğrafiyasında da qədim insanlar arasında geniş yayılmışdı. Onlar da bu günü bayram və şadyanalıqla keçirirdilər.*

*Qədim Yunanıstanda bu xüsusi mərasim müxtəlif şən ayinlərlə müşayiət edilirdi. 17 dekabrdan başlayar, 7 gün boyunca davam edirdi.*

*Bu ayində şam yandırılması Günəşin özü ilə gətirdiyi istiliyi anmaqdan əlavə yəhudiliklə də əlaqəlidir. Çünki bəzi qaynaqlara görə, Xanuka yəhudi bayramı (Xanuka, yaxud İşıq bayramı. Səkkiz gün davam edən bu yəhudi bayramı təqribən Milad bayramı ilə üst-üstə düşür) Milad bayramının ilkin köklərindəndir.*

*Yəhudilər Xanuka bayramında qışın bahara doğru gerisayım hesab etdikləri bir gününü şadyanalıq edirdilər. Səkkiz gün boyunca hər gün şam yandırır, şənlik edirdilər. İngiltərədə xristianlığa keçiddən öncə bu şənliklər 12 dekabrda keçirilirdi və onu ilin ən qısa gecəsinin anımı hesab edirdilər.*

*Çevirən: Maqsud Sayıl*

# XRİSTİAN MİLAD BAYRAMI, YOLKA AĞACI VƏ ŞAXTA BABA



*Milad ənənələri xristian ölkələrində o qədər geniş yayılmışdır ki, bəzən onun mənşəyi belə unudulmuşdur. Təbii ki, söhbət Milad bayramına daxil edilmiş Şaxta baba və yolka ağacı kimi ənənələrdən gedir. Bu kimi ənənələr Milad bayramına necə daxil olmuşdur?*

*Milad bayramında yaşıl ağaca diqqət ayininin əsasını ilk dəfə keşiş Draydes qoymuşdur. O inanırdı ki, soyuq və qaranlıq qışın kəskin çağında polad ağacı həyat rəmzidir və biz, yaşıl ağacı anmaqla, müqəddəsləşdirməklə öz iman və xilasımıza ümidvar ola bilərik.*

*Antik Yunanıstanda bu mərasim sevinc tanrısını anmaq üçün keçirilirdi. Miladdan öncə 983-cü ildə isə kilsə xadimlərindən Müqəddəs Qriqori Nazianzin bu küfr mərasiminə kəskin etiraz etmiş və orada iştirak etməyi xristianlara yasaq etmişdir. Beləcə Milad üç – din, ənənə və küfr üzərində qurulmuş və möhkəmlənmişdir.*

*ŞAXTA BABA*

*Bu gün Milad bayramında bayram keçirənlər arasında peyda olan ahıl, mehriban, şişman, qırmızı geyimli, ağ və uzun saqqallı obraz müxtəlif dillərdə müxtəlif adlarla tanınır. Ded Moroz, Baba Noel, Santa Klaus və s.*

*Dördüncü yüzillikdə Kiçik Asiyanın (bugünkü Türkiyə) yepiskoplarından biri uşaqlara qarşı mehriban davranışına görə məşhurlaşdı. Bu şəxs Müqəddəs Nikolas kimi tanındı. Orta əsrlərə və Renessans dönəminə aid rəsm əsərlərində keşiş Nikolas uca boylu, ciddi və nəcib biri kimi təsvir edilir. XVI əsrə qədər dekabrın 6-da bütün Avropada ona xas mərasim keçirilirdi. Lakin ondan sonra bu mərasim yalnız Niderland protestantlarına xas oldu.*

*Niderlandlı uşaqlar Milad gecəsi öz ayaqqabılarını evin divar buxarısının yanına qoyur və bir az da Müqəddəs Nikolasın atı üçün yem atırdılar. Müqəddəs Nikolas öz atına minərək evlərin banından keçir, evlərin dudkeşindən uşaqların ayaqqabısına konfet və şirni atırdı. Eyni zamanda onun müavini – Qara Pyotr – da bacadan içəri atılır, uşaqlar üçün gətirdiyi hədiyyələri evə qoyurdu.*

*Niderland mühacirləri Şimali Amerikaya köçdülər. Bu ənənəni özləri ilə oraya da apardılar. "Milad gecəsi" adlı mənzum bir hekayədə ilk dəfə olaraq marala qoşulmuş xizəkli ahıl və hazırcavab bir kişidən söhbət açılır. Milad İncil əsrlərində bayram edilmirdi. Amma bəzi kilsələrdə Allaha İsanı (ə) yer üzünə göndərdiyi üçün şükür etmək məqsədilə mərasim keçirilirdi.*

## "BGMİ"NİN 2016-CI İL ÜÇÜN ÜMUMİ İLLİK HESABATI

| | İBADƏTXANALAR | SAYI |
|---|---|---|
| Məscid | Məscidlərin təmiri, dəstəmazxana və s. inşa edilməsi | 46 məscid |
| | Məscidlərin namaz xalçası ilə döşənməsi | 4 məscid |
| | Məscidlərin müxtəlif sahədə olan ehtiyacları qarşılanmışdı | 11 məscid |
| | Məscidlərin qeydiyyatı | 130 məscid |
| | Səsgücləndiricilər və s. texnika ilə ehtiyacı ödənildi | 45 məscid üçün |

| | NƏŞR OLUNAN MATERİAL | SAYI VƏ TİRAJI |
|---|---|---|
| Nəşriyyat | Kitab | 35 kitab, ümumi cəmdə 90000 ədəd |
| | Qazet | 16 say, ümumilikdə 70000 nüsxə |
| | Jurnal | 10 adda jurnal, 13000 nüsxə |
| | Braşurlar | 8 mövzuda, 46000 ədəd |
| | Təqvim | 3 növ, 20000 ədəd |
| | Baner və posterlər | 30 ədəd |

| VİRTUAL ALƏM (WEB SAYTLAR) | | |
|---|---|---|
| Virtual aləm TV və MOBİL | AMAG.ge, BGMİ.ge | İdarənin rəsmi web səhifəsi yeniləndi |
| | Muslimmedia.ge və Youtube səhifə | İnternet tv-nin web səhifəsi (Bu günə qədər 350 veriliş hazırlanıb) |
| | Aile.ge | Ailə üçün sağlam, mənəvi, elmi və tərbiyəvi bilgilər yenilənib |
| | Islammobile.biz - PlayMarketdə | Telefon üçün 150-dən çox sayda APK formatda kitab və dini materiallar hazırlandı |

| YENİLİKLƏR, RAZILAŞMALAR VƏ MÜQAVİLƏLƏR | |
|---|---|
| Faaliyyət | Qaz çəkilən yeni 22 məscidlərin siyahıya əlavə olunması üçün SOCAR Georgia qaz şirkəti ilə müqavilə imzalandı |
| | Hərbi xidmət zonalarında müsəlman inanclı əsgərlər üçün ibadət otaqlarının açılması |
| | Din xadiminin nəzarəti əsasında daha dörd şirkətə ət üçün Halal sertifikatın verilməsinə görə yeni şirkətlərlə müqavilə bağlandı |
| | Novruz, Qurban və Ramazan bayramlarında məhbuslar üçün evlərindən bayram yeməkləri götürmələrinə izn haqda razılaşma təmin olundu |
| | Bir neçə inanclı gəncin alternativ hərbi xidmətdən faydalanması üçün yazılan müraciət təmin olundu |
| | Bir neçə məhbusun əfvi və vaxtının azalması üçün edilən müraciətlər qəbul olundu |

| XEYRİYYƏÇİLİK | | | |
|---|---|---|---|
| Xeyriyyə | Sünnət proqramı | | 1 dəfə ümumilikdə 200 uşaq əməliyyat edildi |
| | Əlillərə yardım | | 24 əlil arabası verildi |
| | Əhaliyə yardım | Ramazan ayında | 1500 yoxsul ailəyə ərzaq kisələri verildi |
| | | Qurban bayramında | 15000-dən çox ailəyə qurban payı verildi |
| | Sədəqə fondundan | | 800-dən çox ehtiyaclı fəqirə yardım edildi |
| | Kimsəsiz uşaqlar yurduna | | Ümumi 4000 lari məbləğində ehtiyacları olan əşyalar alındı |

| KEÇİRİLƏN KONFRANS, SEMİNARLAR VƏ TOPLANTILAR | | |
|---|---|---|
| Tədbirlər | Konfrans | 5 elmi konfrans müxtəlif mövzularda |
| | Seminar | 17 müxtəlif mövzularda elmi seminar |
| | Təqdimat | 2 kitab təqdimatı |
| | Yarış | 2 Quran yarışı oğlanlar və qızlar üçün (ümumilikdə 90 nəfərin iştirakı ilə) |
| | | 1 Rəsm yarışı böyüklər və kiçiklər üçün (ümumilikdə 121 nəfərin iştirakı ilə) |
| | | 2 Kitab oxumaq yarışı ümumi və tələbələr arasında (ümumilikdə 700-dən çox iştirakçı ilə) |
| | Teatr | 2 dəfə dini, tarixi hadisədən ibarət səhnələri təqdim etmək üçün |
| | Toplantılar | 80 dəfə - din xadimləri ilə |
| | | 40-a yaxın ölkə daxilində toplantılarda və yığıncaqlarda iştirak |
| | Xaricə səfər | 16 dəfə (Azərbaycan, Türkiyə, İraq və İrandakı konfrans və rəsmi görüşlərdə din rəhbərlərinin iştirakı və ya ölkəmizin təmsil olunması üçün şəxslərin göndərilməsi) |
| | Əhali ilə görüş | 100-dən çox (Ölkənin şərq və qərb bölgəsində olan şəhər, rayon və kəndlərdə olmaq, camaatla görüşlər təyin etmək) |

| MƏRASİM VƏ TƏDBİRLƏR | | |
|---|---|---|
| Bayramlar | Qurban bayramında mərasim | 3 yerdə |
| | Ramazan bayramında İftar məclisləri | 30 yerdə (şəhər, rayon və kəndlərdə) |
| | Müqəddəs şəxslərin təvəllüdü münasibəti ilə mərasimlər keçirildi | 22 yerdə möhtəşəm şəkildə təşkil edildi |
| | Mövlud bayramı və kandillərdə mərasim | 16 yerdə |

| ZİYARƏTLƏR | | |
|---|---|---|
| Ziyarətlər | Həcc ziyarəti | 36 nəfərlik, 20 günlük |
| | Məşhəd ziyarəti | 3 dəfə (ümumilikdə 80 nəfərlik) |

### Gürcüstan Müsəlmanları İdarəsi tərəfindən
### “SEVGİ, SÜLH VƏ RƏHMƏT PEYĞƏMBƏRİ” MÖVZUSUNDA
# ŞEİR MÜSABİQƏSİ ELAN OLUNUR

Azərbaycan və gürcü dillərində Əziz İslam Peyğəmbəri (s) haqda istənilən məzmunda, istənilən vəzndə yazılmış şeirlər (5 kupletdən az olmamaq şərti ilə) müsabiqəyə təqdim edilə bilər. Ancaq unutmamalıyıq ki, şeir müsabiqə iştirakçısının müsabiqə üçün yazdığı yeni (heç yerdə dərc olunmayan) şeiri olmalıdır.

Yaş məhdudiyyəti qoyulmayan müsabiqədə ümumilikdə 10 (5 azərbaycan və 5 gürcü dilləri üçün) mükafat nəzərdə tutulub.

Hər iki **BİRİNCİ YER ÜÇÜN 2000 LARİ, İKİNCİ YER ÜÇÜN 1000 LARİ, ÜÇÜNCÜ YER ÜÇÜN 800 LARİ, DÖRDÜNCÜ VƏ BEŞİNCİ YERLƏR ÜÇÜN İSƏ 500 LARİ** nəzərdə tutulub.

Hz. Məhəmməd Peyğəmbərin (s) mübarək doğum günü münasibəti ilə keçirilən müsabiqə bu aydan başlayaraq 2017-ci ilin fevral ayının sonuna qədər davam edəcəkdir.

Müsabiqəyə təqdim edilən bütün şeirlər şairlər və ədiblərdən ibarət münsiflər heyəti tərəfindən dəyərləndirildikdən sonra antologiya şəkilində dərc edilib keçirilməsi nəzərdə tutulan “Şeir axşamı” tədbirində müəlliflərə, din xadimlərinə və qələm əhlinə hədiyyə olunacaqdır.



Müəlliflər şeirlərini fevralın 28-nə qədər aşağıda göstərilmiş e-mail ünvana və ya İdarənin facebook səhifəsinə (müəllifin şəkli və haqqında qısa məlumat və əlaqə telefonu vacibdir) göndərməlidirlər.

E-mail: info.amag77@gmail.com Tel: +995 577623031

Təşkilatçılar: Gürcüstan Müsəlmanları İdarəsi

Türkiyə Diyanət İşləri Başkanlığının Gürcüstan nümayəndəliyi


ON4 Kanal 12 HadiTV

*ON4 TV və KANAL 12 FREKANSLARI*

*TÜRKSAT 4A*
*FREKANS: 12345*
*SEMBOL: 30000*
*POL: VERTICAL - DIKEY*
*FEC:3/4*

*Hörmətli Hadi TV3 izləyicilərinə bildirilir ki, kanalımızın yayımı “Hotbird” peykindən “Eutelsat” peykinə keçirilib.*

*Kanalımızın yayımını “Eutelsat” peykindən izləyə bilərsiniz.*

*Hadi TV3 kanalının yeni yayım tezliyi (frekansı):*

*Satellite: ... Eutelsat 7A*
*Frquency: ......... 11262*
*Polarity: ................ H*
*Code Rate: ....... 27500*
*FEC: ......................... ¾*